

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 22 (916) ■ 13 iyun 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Güclü siyasi iradə sayəsində ərsəyə gələn möhtəşəm layihə gerçəkləşdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev TANAP layihəsinin açılış mərasimində iştirak etmək üçün iyunun 12-də Türkiyə Respublikasına səfər edib. Həmin gün Türkiyənin Əskişəhər şəhərində dövlətimizin başçısı Ukrayna Prezidenti Petro Poroşenko və BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə də görüşüb.
Daha sonra dövlətimizin başçısı İlham Əliyevin Əskişəhərdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Azərbaycan ilə Türkiyənin birgə həyata keçirdiyi mühüm qlobal layihələrin, o cümlədən TANAP layihəsinin əhəmiyyəti vurğulanıb. Söhbət zamanı enerji sahəsində geniş əməkdaşlığın həyata keçirildiyi qeyd olunub. Dövlət başçıları əminliklərini bildiriblər ki, əlaqələrimiz bundan sonra da bütün sahələrdə daim möhkəmlənəcək və genişlənəcək. Görüşdə ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.




## Prezident İlham Əliyev: «Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq»

İyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib. Mərasim bu möhtəşəm layihə haqqında videoçarxın nümayişi ilə başlayıb.

Qeyd edək ki, TANAP layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı «Şahdəniz-2» yatağından və Xəzərin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və Avropaya nəqlini nəzərdə tutur. Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biri olan TANAP Gürcüstandan və Türkiyənin 20 vilayətindən keçərək Yunanıstan sərhədinə qədər uzanır. Layihə ilə bağlı Azərbaycan ilə Türkiyə arasında Anlaşma Memorandumu 2011-ci il dekabrın 24-də, Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair Saziş isə 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. TANAP layihəsi təbii qazın «Şahdəniz», eyni zamanda, Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir.

Mərasimin əvvəlində SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak çıxış ediblər. Sonra Azərbaycan Prezidenti İlham Əliyev nitq söyləyib. Tədbir iştirakçılarını ürəkdən salamlayan dövlətimizin başçısı deyib: «İlk növbədə, qardaş Türkiyə torpağında yenidən olmağımdan məmnunluğumu ifadə etmək istərdim. Biz Azərbaycanda Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə əldə edilmiş uğurlara çox sevinirik. Prezident Ərdoğanın yorulmaz fəaliyyəti nəticəsində Türkiyə dünya çapında böyük gücə çevrildi. Türkiyə o ölkədir ki, dünya gündəliyini müəyyən edir. Biz Azərbaycanda buna sevinirik. Türkiyənin gücü bizim gücümüzdür və bizim gücümüz birliyimizdədir. Biz uzun illərdir ki, bu birliyi nümayiş etdiririk. Bu gün dünyada bir-birinə bu qədər yaxın olan, bir-birini bu qədər dəstəkləyən ikinci ölkələr tapmaq çox çətindir. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı həm ölkələrimiz üçün, həm xalqlarımız üçün, bölgəmiz üçün, Avrasiya üçün önəmli amildir.

Bu gün TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olmuşdur.

Bu, birgə həyata keçirdiyimiz birinci layihə deyil. Biz bundan əvvəl - 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışını qeyd etdik. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin açılışını birlikdə etdik. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını birlikdə etdik. Bütün bu açılış mərasimlərində əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə iştirak etmişik. Bu gün bu tarixi gündə də biz birlikdəyik. Bu, onu göstərir ki, bizim təşəbbüsümüzlə irəli sürülən istənilən layihə həyatda öz əksini tapır. Çünki bunun arxasında düşünülmüş siyasət, güclü iradə və bizim qardaşlığımız dayanır. Azərbaycan qazının Avropa qitəsinə böyük həcmdə ötürülməsi haqqında son illər ərzində bir çox müzakirələr aparılmış və bir çox tədbirlər keçirilmişdir.

Davamı 2-ci səhifədə

# Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.



İftar mərasimi «Qurani-Kərim»dən ayələrin və Ramazan duasının oxunması ilə başlayıb. Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə mərasim iştirakçılarını salamlayaraq Prezident İlham Əliyevin dini etiqad, söz, ifadə azadlığına verdiyi töhfədən, müxtəlif milli və dini mənsubiyyətli vətəndaşlarımızın bütün insani hüquq və azadlıqlarını təmin edilməsindəki xidmətlərindən bəhs edib. Bildirib ki, müxtəlif dinlərin məbədlərinə qayğı və diqqəti, o cümlədən dini mərkəz olan Təzəpir kompleksi ətrafında hazırda aparılan möhtəşəm abadlıq-quruculuq işləri Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində bu gün Azərbaycan dünyada qlobal ideyalar mərkəzi olaraq tanınır.

Mərasimdə çıxış edən Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr bildirib ki, Azərbaycan çoxmillətli və buna görə də çoxkonfessiyalı dövlətdir. Bu, ölkəmizin daxili həyatının spesifikasıdır: «Azərbaycanın dövlət siyasəti olan multikulturalizm qlobal səviyyədə ümumbəşəri dəyərləri müdafiə edir. Dünya dindarları bunu yüksək qiymətləndirirlər. Beynəlxalq səviyyədə ksenofobiyanın kökünün kəsilməsi işində bu cür səylər biz din xadimlərinin gündəlik işinə güclü stimul verir. Xüsusən Zati-alinizin ideyaları sayəsində dünyanın müxtəlif ölkələrində, o cümlədən Rusiyada keçirilmiş beynəlxalq konfranslar belə tədbirlərə ehtiyac olduğunu və onların qlobal əhəmiyyətini göstərən əyani nümunələrdir».

Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Milix Yevdayev isə dini və mədəni müxtəlifliyin harmoniyasına əsaslanan cəmiyyət quruculuğunun Azərbaycan Respublikasında mümkün olduğunu və ölkəmizdə yaşayan yəhudilərin əsrlər boyu xalqımızla qardaşlaşmış, dinc və əmin-amanlıq şəraitində yaşadığını xatırladıb. Qeyd edib ki, yəhudilər Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edir.

Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete çıxışında bütün dünyada multikulturalizm ideyalarının təbliğində ölkəmizin rolunu yüksək qiymətləndirib: «Azərbaycandakı bütün başqa dindarlar kimi, biz katoliklər də burada dini etiqad azadlığından və digər insan haqlarından, dövlət dəstəyindən bəhrələnirik. Azərbaycan mənim yeni vətənim olub. Buna görə qürur duyaraq qeyd etməliyəm ki, bu addım Azərbaycana beynəlxalq səviyyədə verilən əhəmiyyəti nümayiş etdirir. Biz səmimi qəlbdən arzu edirik ki, Vatikan ilə Azərbaycan arasında qarşılıqlı hörmətə əsaslanan münasibətlər bundan sonra da davam və inkişaf etsin».

Mərasimdə nitq söyləyən Prezident İlham Əliyev bildirib ki, hər il olduğu kimi, biz bu il də mübarək Ramazan ayında iftar məclisində görüşürük: «Bu gözəl ənənə yaşayır və yaşamalıdır. Bu, Azərbaycanda dövlət-din əlaqələrinin nə qədər yüksək səviyyədə olmasından xəbər verir. Dövlət-din münasibətlərinin formalaşmasının təşəbbüskarı ulu öndər Heydər Əliyev olmuşdur. Bütün sahələrdə olduğu kimi, Ulu Öndər Azərbaycanın inkişaf konsepsiyasının müəllifidir. İnkişaf istiqamətlərini müəyyən edərkən o, çox böyük uzaqgörənlik göstərmişdir. Bu gün Azərbaycanın uğurlu inkişafı məhz bu konsepsiyanın icrası nəticəsində mümkün olmuşdur».

Davamı 2-ci səhifədə

## Rəsmi xronika

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də Müdafiə Nazirliyinin Raket Qoşunlarının «N» saylı hərbi hissəsinin açılışında iştirak edib. Dövlətimizin başçısı hərbi hissədə yaradılan şəraitlə tanış olub, əsgər yataqxanası və yeməkxananı gəzib, hərbi heyətlə söhbət edib. Sonra Prezident İlham Əliyev raketlərin saxlanması və döyüş maşınlarına yüklənməsi anqarına və döyüş texnikası parkında hərbi texnikaya baxıb. Ali Baş komandana əməliyyat-taktiki raket kompleksi olan «POLONEZ» barədə məlumat verilib.

- İyunun 10-da Prezident İlham Əliyev Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovun, Peru Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mariya Milaqros Kastanyon Seoanenin, Bolqarıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolay Yankovun etimadnaməsini qəbul edib.

- Dövlətimizin başçısı iyunun 8-də Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti, Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, Avropa Parlamentinin üzvü Yan Zahradili qəbul edib. Rəhbərlik etdiyi alyansın Azərbaycanla uğurlu əməkdaşlıq həyata keçirdiyini deyən Yan Zahradil Avropa ilə Azərbaycan arasında əlaqələrin inkişafına töhfə verməsindən məmnunluğunu ifadə edib.

- Prezident İlham Əliyev iyunun 8-də Qambiya Respublikasının xarici işlər naziri Ousainu Darboenin başçılıq etdiyi, Qambiyanın əmək və infrastruktur naziri Bai Lamin Jobenin daxil olduğu nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Azərbaycan ilə Qambiya arasında dostluq əlaqələrinin mövcud olduğunu vurğulayaraq ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və BMT-də uğurlu əməkdaşlıq həyata keçirdiyini və bir-birini daim dəstəklədiyini məmnunluqla qeyd edib. Qambiya Prezidenti Adama Barrounun salamlarını dövlətimizin başçısına çatdıran qonaq qeyd edib ki, Prezident Adama Barrou Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük inkişafa nail olduğunu və bölgədə əməkdaşlığa, iqtisadi inkişafa, sülhün və təhlükəsizliyin təmin olunması işinə mühüm töhfə verdiyini bildirib.

İnsan hüquqlarının qorunması vergi orqanlarının əsas prioritetlərindəndir — səh. 2

Dəyişikliklər bir sıra anlaşılmazlıqların qarşısının alınmasına şərait yaradacaq — səh. 3

E-imzalar qarşılıqlı şəkildə tanınacaq — səh. 4

«Made in Azerbaijan» brendi xarici bazarlarda tanıdılır — səh. 5

# Güclü siyasi iradə sayəsində ərsəyə gələn möhtəşəm layihə gerçəkləşdi

**Əvvəli 1-ci səhifədə**

Ancaq əfsuslar olsun ki, onların heç bir nəticəsi olmamışdır. Belə olan halda Türkiyə və Azərbaycan qərara gəldilər ki, biz özümüz yeni bir layihəni irəli sürək və bunun adını da biz birlikdə qoyduq - TANAP. TANAP üzrə anlaşmanı 2012-ci ildə İstanbul şəhərində Rəcəb Tayyib Ərdoğan və mən imzaladıq. O gün həmin imzalanma mərasimində biz bugünkü günü görmək arzumuzu ifadə etdik və Allah bizə bunu nəsib etdi. Biz bu illər ərzində böyük işlər gördük. TANAP layihəsinin icrası həm texniki, həm maliyyə cəhətdən çox mürəkkəb bir işdir. Ancaq bunu biz çox böyük müvəffəqiyyətlə icra etdik. Bu gün TANAP-ın istismara verilməsi qonşu və dost ölkələr üçün gözəl imkanlar yaradır. TANAP yeddi ölkəni, bir çox şirkətləri birləşdirir. Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olan TANAP bu gün və gələcəkdə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir. Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi iki həftə bundan öncə - mayın 29-da Bakıda təşkil edilmişdir. Cənub Qaz Dəhlizi dörd böyük layihədən ibarətdir. «Şahdəniz-2» qaz yatağının işlənilməsi, - o yatağın ehtiyatları 1,2 trilyon kubmetrdir, - Cənubi Qafqaz Kəməri, TANAP və TAP layihəsi. Bu dörd layihənin üçü artıq reallaşıb, başa çatıb. TAP da 72 faiz icra olunub. Əminəm ki, yaxın iki il ərzində TAP layihəsi də tamamlanacaq və beləliklə, Avropanın 40 milyard dollar sərmayə tələb edən ən böyük infrastruktur layihəsi olan «Cənub Qaz Dəhlizi» icra edilmiş olacaqdır. Bu tarixi nailiyyət bizə imkan verəcək ki, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılsın.

«Cənub Qaz Dəhlizi» enerji təhlükəsizliyi layihəsidir. Enerji təhlükəsizliyi isə hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Cənub Qaz Dəhlizinin önəmi məhz bundadır - enerji təhlükəsizliyi və enerji resurslarının şaxələndirilməsi. Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan qazı yeni yollarla Türkiyəyə və Avropa bazarlarına çıxarılacaqdır. «Cənub Qaz Dəhlizi» həm yeni yollar, həm də yeni mənbə layihəsidir. Bu, sözün əsl mənasında, enerji şaxələndirilməsi məsələsinə xidmət göstərir.

Bu böyük işlərin icrasında SOCAR, BOTAŞ və BP şirkətləri iştirak ediblər, onlar TANAP-ın səhmdarlarıdır. Mən onlara öz təşəkkürümü bildirmək istəyirəm.




Bu işlərdə iştirak etmiş bütün şirkətlərə təşəkkürümü bildirmək istəyirəm ki, onlar bu böyük işi yüksək keyfiyyətlə və qısa müddət ərzində görə bildilər. Cənub Qaz Dəhlizi Avrasiyada yeni əməkdaşlıq, işbirliyi formatını təşkil edir. Əgər işimizin əvvəlində - 2000-ci illərin əvvəllərində Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlıq formatı yaranmışdırsa, bu gün qeyd etdiyim kimi, yeddi ölkə bu layihədə iştirak edir. Daha üç ölkə bizim gələcək tərəfdaşlarımız kimi bu layihədə iştirak edəcək. Biz çalışmalıyıq ki, Azərbaycan qazının Avropa qitəsinə çatdırılması istiqamətində daha böyük işlər görək və bizim əhatə dairəmiz daha geniş olsun.

Bir daha demək istəyirəm ki, bu gün tarixi bir gündür. Bu günün mümkünlüyü ancaq və ancaq güclü siyasi iradə nəticəsində olmuşdur. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı olmasaydı bu layihə kağız üzərində qala bilərdi. Əlbəttə, bir daha demək istəyirəm, Türkiyənin xarici sərmayə üçün çox gözəl ölkə kimi özünü təqdim etməsi imkan verdi ki, Türkiyəyə böyük yatırımlar qoyulsun. Son illər ərzində təkcə Azərbaycan tərəfindən Türkiyə iqtisadiyyatına 13 milyard dollardan çox sərmayə qoyulubdur, növbəti illərdə bu rəqəm 20 milyard dollara çatacaqdır.

Bu gözəl hadisə münasibətilə sizi, xalqlarımızı, bizim bütün dostlarımızı ürəkdən təbrik etmək istəyirəm, TANAP-a yaxşı yol arzulayıram. Sağ olun».

***

Daha sonra Şimali Kipr xalqının lideri Mustafa Akıncı, Serbiya Prezidenti Aleksandr Vuçic, Ukrayna Prezidenti Petro Poroşenko və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış ediblər. Sonra TANAP kəmərinə qazın verilməsi mərasimi olub.

Xatırladaq ki, uzunluğu 1805 kilometr olan TANAP boru kəmərinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. Kəmərdən Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir. Layihənin ilkin mərhələsində illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcək.

# Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır

**Əvvəli 1-ci səhifədə**

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır: «Azərbaycanda həm dövlət-din əlaqələri, həm dinlərarası əlaqələr nümunəvi xarakter daşıyır. Bilirəm ki, bu məsələlərlə bağlı Azərbaycan modeli bu gün artıq dünyada bir çox yerlərdə öyrənilir. Bu, bizim uğurlu inkişafımız üçün lazımdır. Bu, dövlət siyasətimizin təzahürüdür. Eyni zamanda, bu, cəmiyyətimizin vəziyyətini, cəmiyyətdə mövcud olan ab-havanı əks etdirir. Azərbaycanda dinlərarası məsələlərlə bağlı çox ciddi düşünülmüş dövlət siyasəti aparılır və bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir.

Azərbaycanda bu münasibətlərin tənzimlənməsi ölkəmizin uğurlu inkişafını təmin edir. Azərbaycanda mövcud olan milli həmrəylik, vətəndaş birliyi, sabitlik məhz bu münasibətlərin əsasında qurulubdur. Azərbaycan xalqı öz milli dəyərlərinə sadiqdir və Azərbaycan dövləti milli dəyərlər üzərində qurulubdur. Eyni zamanda, Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin qurulmasında artıq nümunəvi ölkə kimi tanınır. Biz həm dünyaya Azərbaycandan çox ciddi və müsbət siqnal göndəririk, həm də ölkəmizin uğurlu inkişafı üçün bu münasibətlərin yüksək səviyyədə olması çox önəmlidir. Bizim amalımız birdir, bizim niyyətimiz birdir. Biz istəyirik ki, ölkəmiz daha da güclənsin, daha da sürətlə inkişaf etsin. İstəyirik ki, Azərbaycan xalqı daha yaxşı yaşasın, rifah, sülh, əmin-amanlıq şəraitində yaşasın. Nəinki bunu istəyirik, öz praktiki addımlarımızla bunu təmin edirik».

Prezident İlham Əliyev bildirib ki, müsəlman ölkələri beynəlxalq təşkilatlarda Azərbaycanı daim dəstəkləyirlər və yaxşı bilirlər ki, Azərbaycan da öz növbəsində bütün beynəlxalq təşkilatlarda müsəlman ölkələrini dəstəkləyir: «Azərbaycan dünyada İslam mədəniyyətinin təbliği işində çox fəal və uğurlu rol oynayır. Biz dünyanın müxtəlif ölkələrində İslam mədəniyyətinin təqdimatı ilə bağlı bir çox tədbirlər keçirmişik, keçiririk və keçirəcəyik. Sərgilər, mədəni proqramlar, təqdimatlar, konfranslar - bütün bu addımlar bir məqsədi güdür ki, dünyaya İslam mədəniyyətini, İslam dəyərlərini olduğu kimi təqdim edək, bəzi hallarda İslam dini ilə bağlı təhrif edilmiş və yanlış fikirlərə qarşı öz səsimizi ucaldaq və real həqiqətləri çatdıraq. Bizim bu fəaliyyətimiz bir daha onu göstərir ki, Azərbaycan həm İslam mədəniyyətinin təbliğinə, həm İslam ölkələri arasındakı həmrəylik meyillərinə çox güclü töhfə verir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda dini məsələlərin həllinə çox yüksək qiymət verir. İslam Əməkdaşlıq Təşkilatı ölkəmizi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı daim dəstəkləyir. Bir çox qətnamələr qəbul edilmişdir. Bu qətnamələrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətlər, real vəziyyət və ədalətli mövqe nümayiş etdirilir».

Sonra iftar süfrəsi açılıb.

# İnsan hüquqlarının qorunması vergi orqanlarının əsas prioritetlərindəndir

**Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə «İnsan hüquqları günü» kimi qeyd olunur. Azərbaycan Respublikasının ombudsmanının təşəbbüsü ilə mayın 18-dən iyunun 18-dək ölkəmizdə «İnsan hüquqları aylığı» keçirilir.**

Ombudsman Aparatından aldığımız məlumata görə, hər il keçirilən aylıq çərçivəsində dövlət qurumları, QHT və KİV-lər, icmalar və beynəlxalq təşkilatlar tərəfindən insan hüquqları sahəsində səmərəli əməkdaşlığın davamı olaraq, respublikanın bütün şəhər və rayonlarında silsilə tədbirlər və müzakirələr təşkil edilir. Bu tədbirlər əhalinin müxtəlif qruplarının hüquqi maarifləndirilməsi, onların hüquq düşüncəsinin inkişaf etdirilməsi ilə yanaşı, pozulmuş hüquqların bərpasına və vətəndaş cəmiyyətinin inkişafına xidmət edir. «İnsan hüquqları aylığı» çərçivəsində müvafiq qurumlar tərəfindən əhalinin müxtəlif qruplarını əhatə etməklə insan hüquqlarını təbliğ edən mövzularda konfrans və maarifləndirmə tədbirlərinin təşkili və görülən işlər haqqında məlumatlar, insan hüquqlarının daha səmərəli təmini ilə əlaqədar təkliflər ombudsmana təqdim edilir. Aylığın nəticələri ümumiləşdirilərək təhlil olunur və ictimaiyyətə açıqlanır.

«İnsan hüquqları aylığı» çərçivəsində 2018-ci ilin may ayı ərzində vergi orqanları da müvafiq tədbirlər həyata keçirmişdir. Vergi ödəyicilərinə xidmət strukturları tərəfindən təşkil olunan bu tədbirlər davamlı xarakter daşıyır. Ötən ay ərzində bu mövzuda 945 vergi ödəyicisinin iştirakı ilə 40 görüş keçirilmiş və 75 vergi ödəyicisinə ünvanlı xidmət göstərilmişdir. İyun ayında «İnsan hüquqları aylığı» ilə bağlı vergi ödəyicilərinin iştirakı ilə silsilə tədbirlərə start verilmişdir. Görüşlərdə sahibkarların hüquqlarının qorunması istiqamətində görülən işlər, o cümlədən vergi ödəyicilərinin Vergi Məcəlləsi ilə təsbit edilmiş hüquq və vəzifələri, elektron xidmətlər, Vergilər Nazirliyinin Çağrı Mərkəzi, rəsmi internet saytı, vergi ödəyicilərinə xidmət mərkəzləri, Apelyasiya Şurası və onun fəaliyyəti barədə iştirakçılara ətraflı məlumatlar çatdırılmışdır.

> Müvafiq qurumlar tərəfindən əhalinin müxtəlif qruplarını əhatə etməklə insan hüquqlarını təbliğ edən mövzularda konfrans və maarifləndirmə tədbirləri təşkil olunur, insan hüquqlarının daha səmərəli təmini ilə əlaqədar təkliflər ombudsmana təqdim edilir

Şəffaf vergi partnyorluğu üzrə 2018-ci ilin may ayı ərzində vergi orqanlarına partnyor ödəyici statusunun alınması üçün müraciət edən və ya təsdiq edilmiş qaydalarda göstərilən meyarlara uyğun olduğu müəyyən edilən vergi ödəyicilərinin sayı 491 (o cümlədən Bakı şəhəri üzrə 235) olmuşdur.

2018-ci ilin iyun ayında vergi bəyannamələrinin təqdim edilməsi və vergilərin ödənilməsi müddətləri barədə «Yaddaş», «Vergi təqvimi» və sətir elanlar hazırlanaraq nazirliyin rəsmi internet saytında, sosial şəbəkələrdə yerləşdirilmiş, ATV kanalının «İqtisadi zona» verilişində, digər kütləvi informasiya vasitələrində yayımlanmış, eyni zamanda vergi ödəyicilərinin məlumatlandırılması üçün vergi orqanlarına göndərilmişdir. Vergi ödəyicilərinin elektron xidmətlər barədə məlumatlandırılması və həmin xidmətlərdən istifadənin asanlaşdırılması məqsədilə «Fiziki şəxsin fəaliyyətinin onlayn bərpası» və «Banklarda hesabların açılması üçün şəhadətnamə-dublikatın verilməsi» adlı videotəlimatlar hazırlanaraq nazirliyin rəsmi internet saytında, sosial şəbəkələrdə yerləşdirilmiş, digər kütləvi informasiya vasitələrində yayımlanmış, eyni zamanda vergi ödəyicilərinin məlumatlandırılması üçün vergi orqanlarına göndərilmişdir.

Bu ilin may ayında Vergilər Nazirliyinin rəsmi internet saytının «Sual-cavab» bölməsi vasitəsilə daxil olan 187 sual cavablandırılmışdır və 1 sualın orta cavablandırılma müddəti 2,54 iş günü (2017-ci ilin müvafiq dövründə 5,71 iş günü) olmuşdur. May ayında vergi ödəyicilərinə xidmət strukturları tərəfindən vergi ödəyiciləri ilə 63, bələdiyyələrlə 17, «Vergi dostları» şəbəkəsinin üzvləri, şagird və tələbələrlə 76 görüş (ümumilikdə 156) keçirilmiş, vergi ödəyicilərinə 3 minə yaxın ünvanlı xidmət göstərilmişdir.

Gənc nəslin vergilər barədə biliklərinin artırılması, eləcə də gələcəkdə nümunəvi vergi ödəyicilərinin və ya vergi sahəsində çalışan peşəkar mütəxəssislərin hazırlanması məqsədilə cari ilin may ayının 29-da Vergilər və Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə SABAH tələbələri arasında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümünə həsr olunmuş «Vergi» bilik yarışması keçirilmişdir. «Azərbaycan» Universitetində təşkil edilmiş «Məzun yarmarkası»nda isə tələbələrə vergilərə aid maarifləndirici buklet və kitabçalar paylanılmış və onların vergilərlə bağlı sualları cavablandırılmışdır.

**Rəşad SADIQOV**

# Dövlət büdcəsinə dəyişikliklər parlamentdə müzakirə olunacaq

Bu il dövlət büdcəsinə dəyişikliklər edilməsi ilə bağlı qanun layihəsi Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunub. Bu barədə Maliyyə Nazirliyinin mətbuat xidməti məlumat verib.

Məlumatda bildirilir ki, ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi, dövlətin müdafiə və təhlükəsizliyinin daha da artırılması, turizmin inkişafı, bir sıra sosial və infrastruktur layihələrinin, kənd təsərrüfatı, su təchizatı, meliorasiya və irriqasiya tədbirlərinin və digər zəruri dövlət vəzifələrinin maliyyələşdirilməsi ilə əlaqədar olaraq əlavə maliyyə təminatının yaradılması ilə bağlı «Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanun layihəsi və müvafiq sənədlər mövcud qanunvericiliyə uyğun olaraq Maliyyə Nazirliyi tərəfindən hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilib.

Nazirlər Kabineti tərəfindən məqbul hesab edilən qanun layihəsi Azərbaycan Respublikasının Prezidentinə təqdim olunub. «Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanun layihəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən bəyənilərək müvafiq sənədlərlə birlikdə müzakirə üçün Milli Məclisə təqdim edilib.

# Kiçik və orta sahibkarlıqla bağlı işçi qrup yaradılıb

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin icraçı direktoru Orxan Məmmədovun «Caspian European Club»un idarə heyəti ilə görüşündə birgə əməkdaşlıq imkanları, kiçik və orta biznesin inkişafı üzrə gələcək planlar müzakirə olunub. Görüş çərçivəsində kiçik və orta biznesi təmsil edən şirkətlərin problem, sual və təkliflərinin daha operativ müzakirəsi üçün birgə işçi qrupun yaradılması qərara alınıb.

Agentlik tərəfindən təşkili planlaşdırılan xüsusi treninqlər zamanı kiçik və orta biznes nümayəndələri qanunvericilikdəki dəyişikliklər, dövlətin dəstək tədbirləri barədə məlumatlandırılacaq, biznes təmsilçilərinin fəaliyyətinin səmərəliyinin yüksəldilməsi üçün onlara zəruri bilik və bacarıqlar aşılanacaq.

Görüşdə birgə tərəfdaşlığın Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına imkan yaradacağı qeyd edilib.

# Dəyişikliklər bir sıra anlaşılmazlıqların qarşısının alınmasına şərait yaradacaq



Vergi sistemində həyata keçirilən islahatların əsas hədəflərindən biri iqtisadi artımı sürətləndirmək üçün orta və uzunmüddətli dövrdə vergitutma sahəsində səmərəliliyin yüksəldilməsi, büdcənin dayanıqlığının təmin edilməsi məqsədilə büdcə gəlirlərinin əldə olunması, sahibkarlığın stimullaşdırılması və investisiyaların təşviqidir. Həmin siyasətə uyğun olaraq, eyni zamanda, «Dövlət rüsumu haqqında» Qanuna olunmuş dəyişikliklərin tələblərindən irəli gələrək, vergi bəyannamələrində və hesabat formalarında dəyişikliklərin edilməsi də zəruri məsələlərdəndir. Bu günlərdə vergilər nazirinin imzaladığı müvafiq əmrə əsasən, bəzi vergi bəyannamələrinə, hesabat və onların əlavələrinin tərtib edilməsi qaydalarına dəyişikliklər edilib. Mövzu ilə bağlı suallarımızı Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarət departamentinin Bəyannamələr idarəsinin rəisi Vüqar Əliyev cavablandırır.

***- Vüqar müəllim, vergi bəyannamələrinə, hesabat formalarına və onların əlavələrinə edilən dəyişikliklər nədən ibarətdir?***

- Azərbaycanda aparılan iqtisadi siyasətin mühüm tərkib hissəsi kimi vergi sahəsində davam etdirilən islahatlar inzibatçılığın təkmilləşdirilməsinə, vergi ödəyicilərinə göstərilən xidmətlərin daha da yaxşılaşdırılmasına yönəlməklə yanaşı, ödəyicilərin gəlir və xərclərinin uçotunun düzgün təşkilinə, vergidən yayınma hallarının qarşısının alınmasına və büdcə daxilolmalarının tam həcmdə, vaxtında yığılmasının təmin olunmasına, şəffaflığın artırılmasına xidmət edir. Bu istiqamətdə aparılan kompleks islahatların və yeni iqtisadi münasibətlərin tələblərinə uyğun olaraq, vergi bəyannamələri və onların formaları ilə bağlı bəzi hüquqi tənzimləmə məsələlərinin həll edilməsi zərurəti yaranmışdı.

Qeyd etmək istərdim ki, vergi bəyannamələrinin formalarına dəyişikliklər adətən qanunvericiliyə edilən dəyişikliklər zamanı aparılırdı. Son dövrlər aparılan əhatəli və dərin təhlillərin nəticələri və vergi ödəyicilərindən daxil olan müraciətlər nəzərə alınaraq, bəzi bəyannamə formalarının və onların əlavələrinin dəyişdirilməsinə Vergilər Nazirliyi tərəfindən qərar verildi. Nəticədə dörd vergi bəyannaməsinə və əlavələrinə, eləcə də bir hesabat formasına müvafiq dəyişikliklər edildi. Dəyişikliklər həm bəyannamələrin özünü, həm də onun əlavələrini əhatə edir. «Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi»nə, «Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi»nə, «Əlavə dəyər vergisinin bəyannaməsi»nin 3, 4, 5 nömrəli əlavələrinə, «Əmlak vergisinin bəyannaməsi»nə və onun Əlavəsinə, «Dövlət rüsumu tutulması haqqında hesabat»ın formasına, onun Əlavəsinə və tərtib edilməsi qaydalarına müvafiq dəyişikliklər edilib. Ümumiləşdirdikdə dəyişiklikləri 2 qrupa ayırmaq olar: texniki xarakterli və əsaslı dəyişikliklər.

Ən mühüm və ciddi dəyişikliklərdən biri «Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi»nin yeni formada tərtib edilməsindən ibarətdir. Əvvəlki qaydalara əsasən, müvəqqəti əmək qabiliyyətinin itirilməsinə görə işçiyə ödənilən vəsaitlərin bəyannamələrdə əks etdirilməsində problemlər yaranırdı. Belə ki, dövlət sosial müdafiə orqanları tərəfindən müvəqqəti əmək qabiliyyətinin itirilməsinə görə işçiyə ödənilən vəsaitdən tutulan gəlir vergiləri büdcəyə ödənilir, lakin həmin şəxslər digər vergi ödəyicilərinin işçiləri olduğuna görə hesablamaların şəxsi vərəqələrdə əks olunması məsələlərində çətinlik yaranırdı. Yəni, həmin vəsaitlərin hesabatda hansı qaydada əks etdirilməsi qaranlıq qalırdı. Burada dürüstlük, hesabatlılıq, konkretlilik yox idi. Eyni zamanda, həmin sahədə süni olaraq artıq ödəmələr yaranırdı. Vergilər Nazirliyi sosial müdafiə orqanları tərəfindən daxil olan təklif və müraciətləri nəzərə alaraq, həmin sahə üzrə yaranmış uyğunsuzluqları aradan qaldırmaq üçün muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsinə yeni sətirlərin əlavə edilməsini qərara aldı. Beləliklə, dəyişikliklərdən sonra müvəqqəti əmək qabiliyyətinin itirilməsinə görə işçiyə ödənilən gəlirdən tutulan verginin bəyannamələrdə əks etdirilməsi mümkün olacaq. Eyni zamanda, həmin sahədə vergilərin bəyannamədə əks etdirilməsi ilə bağlı meydana çıxan digər problemlər də aradan qalxacaq. Yeri gəlmişkən, vergi ödəyiciləri və digər şəxslərə məlumat üçün bildirmək istəyirəm ki, qaydalarda göstərildiyi kimi, bəyannaməyə edilmiş həmin sətir bölməsi yalnız dövlət sosial müdafiə orqanları tərəfindən tərtib edilməlidir, digər vergi ödəyicilərinin bəyannamənin həmin hissəsinin doldurulmasına aidiyyəti yoxdur.

> Vergilər Nazirliyi tərəfindən son dövrlər aparılan əhatəli və dərin təhlillərin nəticələri və vergi ödəyicilərindən daxil olan müraciətlər nəzərə alınaraq, bəzi bəyannamə formalarının və onların əlavələrinin dəyişdirilməsinə qərar verildi

Digər bir mühüm dəyişiklik «Əlavə dəyər vergisinin bəyannaməsi» və onun 3,4 və 5 №-li əlavələrinin formalarının tərtibi ilə bağlıdır. 3 №-li Əlavəyə edilmiş dəyişikliklərə əsasən, ƏDV tutulan vergitutma obyektləri, ƏDV tutulan əməliyyat hesab edilməyən dövriyyələrlə bağlı ortaya çıxan uyğunsuzluqlar aradan qaldırılıb. 4 №-li Əlavəyə dəyişikliklə 0 dərəcə ilə vergiyə cəlb edilən əməliyyatlar üzrə konkretlilik təmin olunub. Xüsusi iqtisadi zonalarda aparılan əməliyyatların və Azərbaycanın qoşulduğu bir sıra beynəlxalq müqavilələr üzrə əməliyyatların «0» dərəcə ilə vergiyə cəlb olunması üzrə məsələlər sənədlərdə öz həllini tapıb, həmin istiqamətlər üzrə bəyannamələrin əlavə formalarında müvafiq sətir yaradılıb. 5 №-li Əlavələnin mahiyyəti isə ƏDV-dən azadolmalarla bağlı məsələlərə aydınlığın gətirilməsidir. Həmin əlavələrdə də xüsusi iqtisadi zonalar və beynəlxalq müqavilələr üzrə azadolmalarla bağlı əməliyyatları əks etdirən sətir yaradılıb. Bu, vergi ödəyicilərinin öz əməliyyatlarını detallı və təfərrüatlı şəkildə əks etdirməsinə imkan verəcək. Ümumilikdə, hər 3 əlavə formasına edilmiş dəyişikliklər nəticəsində vergi ödəyiciləri üçün öz əməliyyatlarını dürüst formada əks etdirməyə imkan yaradılacaq. Bu, həm vergi orqanı, həm də ödəyici üçün mühüm əhəmiyyət daşıyır. Əlavə olaraq, vergi orqanlarında həmin əməliyyatların vergitutma baxımından qiymətləndirilməsi üçün informasiya mənbəyi yaranacaq. Vergi orqanı əməliyyatların qiymətləndirilməsi zamanı sahibkarların dövriyyələrinin, əsasən də azadolma və güzəştlərlə bağlı hissəsinin qanunvericiliyə uyğunluğunu və əsaslılığını asanlıqla müəyyən edə biləcək və son nəticədə bəyannamədə əks etdirilmiş dövriyyə ilə bağlı qarşılıqlı yazışmaların azalmasında əhəmiyyətli rol oynayacaqdır.

«Əmlak vergisinin bəyannaməsi»nə və onun əlavə formasına edilmiş dəyişikliklər əsas etibarilə texniki korrektə xarakteri daşısa da, burada da bir sıra yeni məqamlar mövcuddur. Məlum olduğu kimi, 2017-ci ildən sadələşdirilmiş vergi ödəyicilərinin əmlakları da vergiyə cəlb olunur. Məhz bu səbəbdən, sadələşdirilmiş vergi ilə bağlı sözlər bəyannamədən çıxarılıb, əsas dəyişiklik bəyannamənin Əlavəsi ilə bağlı formasına edilib. Burada vergidən azadolmaların daha dəqiq qiymətləndirilməsi ilə bağlı əlavələr olunub.

«Dövlət rüsumu tutulması haqqında hesabat»ın formalarının tərtib edilməsi qaydalarına edilmiş dəyişikliklər isə bir sıra qanunvericilik sənədlərinin tələblərindən yaranıb.

***- Bəyannamə formalarına dəyişikliklərin vergi orqanı və vergi ödəyicisi üçün əhəmiyyəti nədən ibarətdir?***

- Vergi bəyannamələrinə və onun əlavələrinə edilmiş dəyişikliklər vergi inzibatçılığının daha da təkmilləşdirilməsinə və bəyannamə formalarının sadələşdirilməsinə, ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının düzgün müəyyənləşdirilməsinə, bəyannamələr vasitəsilə əldə olunan məlumatların dəqiqləşdirilməsi hesabına vergi ödəyicilərində keçirilən nəzarət tədbirlərinin sayının azaldılmasına xidmət edəcək. Ümumilikdə, dəyişikliklər vergi sistemində səmərəliliyin artırılması, əməliyyatların konkretləşdirilməsi və dəqiqləşdirilməsi, güzəşt və azadolmaların daha detallı qiymətləndirilməsi kimi müsbət amillərə xidmət edəcək. Vergi ödəyicisinin gələcəkdə bir sıra anlaşılmazlıqlarla üzləşməsinin qarşısının alınmasına imkan verəcək, eyni zamanda vergi yoxlaması zamanı onun sanksiyalara məruz qalma riskinin qarşısını alacaq.

***- Yeni bəyannamə və hesabat formalarının tərtib edilməsi zamanı vergi ödəyiciləri hər hansı çətinliklərlə qarşılaşa bilərmi?***

- Hesab edirəm ki, yeni dəyişikliklərlə əlaqədar bəyannamə formalarının tərtibi ödəyicilər üçün çətinlik yaratmayacaq, əksinə, tərtibedilməni sadələşdirəcəkdir. Təbii ki, vergi ödəyiciləri bəyannamələrin daha sadə olmasını istəyir, lakin bir məsələni də nəzərə almaq lazımdır ki, təcrübə göstərir ki, bəyannamədə vergitutma ilə bağlı məlumatlar nə qədər məhduddursa, kameral vergi yoxlamaları zamanı vergi ödəyiciləri ilə bağlı yazışmalar bir o qədər çox olur. Bütün bunlar nəzərə alınaraq çalışılır ki, bəyannamələr asan və informativ, məlumatlarla zəngin olsun və vergi ödəyiciləri ilə lüzumsuz yazışmalar aradan qaldırılsın. Bundan sonra bəyannamələr elə formada tərtib olunacaq ki, vergi ödəyiciləri əməliyyatlarının vergidən azad olunan, güzəşt edilən və digər məsələlərlə bağlı məlumatları, Vergi Məcəlləsi ilə yanaşı, bəyannamə vasitəsilə də ayırd edə biləcək və bu hal gələcəkdə vergi ödəyicisini vergi təqibinə məruz qalmaqdan azad edəcəkdir.

***- Yeni bəyannamə forması haqqında vergi ödəyicilərinin maarifləndirilməsi istiqamətində hansı izahedici tədbirlərin görülməsi nəzərdə tutulur?***

- Vergilər Nazirliyi bəyannamə formalarına edilmiş dəyişikliklər barədə ödəyiciləri məlumatlandırmaq, izahedici xarakterli informasiya vermək üçün mütəmadi olaraq müvafiq işlər görəcək. Yeni bəyannamə formalarının tətbiqi 2018-ci il yanvarın 1-dən başlayan hesabat dövrlərinə aiddir. Vergi orqanı bir sıra məqamları nəzərə alaraq ödəyicilərə qarşıdakı müddətdə tərtib etdikləri bəyannamələrdəki uyğunsuzluqları aradan qaldırmaq, yenidən tərtib etmək imkanları verib. Hazırda iyun ayıdır və ƏDV ödəyicilərinin əksəriyyəti artıq 2018-ci ilin ötən 5 ayı üzrə bəyannamələri təqdim ediblər. Bu baxımdan, hansısa rəqəmlərdə anlaşılmazlıq, uyğunsuzluq varsa, onların aradan qaldırılmasında, yenidən düzgün tərtib olunmasında vergi orqanları ödəyicilərə istənilən köməyi göstərməyə hazırdır...

Yeni bəyannamə formaları ilə Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin (www.taxes.gov.az) «Bəyannamələr» bölməsində tanış olmaq mümkündür.

***Müsahibəni hazırladı:***
**Elbrus CƏFƏRLİ**

# Ticarət festivalına yekun vuruldu

May ayının 1-dən 31-dək Bakı şəhərində keçirilmiş üçüncü Ticarət (Shopping) Festivalına yekun vurulmuşdur. Ticarət festivalının operatoru səlahiyyətlərini həyata keçirən Vergilər Nazirliyi tərəfindən altı iri ticarət mərkəzində - Nərgiz Mall, 28 Mall, Port Baku, Park Bulvar, Metro Park, Gənclik Mall və Bravo hipermarketində ƏDV köşklərinin fəaliyyəti təşkil olunmuş, köşklər zəruri proqram təminatı və avadanlıqlarla təchiz edilmişdir. Köşklərdə ƏDV-nin qaytarılmasının rəsmiləşdirilməsi prosesində iştirak edəcək əməkdaşlar müəyyən edilmiş, onlara «ASAN imza» alınmış və Vergilər Nazirliyi adından çıxış etmək üçün səlahiyyət verilmiş, ƏDV-nin qaytarılmasının rəsmiləşdirilməsi prosesinin öyrədilməsi məqsədilə təlim keçilmişdir.

Vergilər Nazirliyi və Təhsil Nazirliyi arasında imzalanmış əməkdaşlıq Memorandumuna uyğun olaraq, ali məktəb tələbələri könüllülük əsasında festivala cəlb olunmuşlar. Zəruri bacarıqların aşılanması üçün təlimlərə cəlb olunmuş tələbələr festival müddətində növbəlilik əsasında ƏDV köşklərində fəaliyyət göstərmişlər.

Ticarət festivalı dövründə ƏDV-nin qaytarılması məqsədilə satıcı kimi qeydiyyata alınmaq üçün 44 vergi ödəyicisi müraciət etmiş və həmin ödəyicilərə aid 268 təsərrüfat subyektinə vergi orqanında qeydiyyatdan keçmək üçün zəruri kömək göstərilmişdir.

«Unibank Kommersiya Bankı» ASC-nin, «Bank VTB» (Azərbaycan) ASC-nin və «AtaBank» ASC-nin filiallarının ticarət festivalı dövründə müvəkkil bank kimi fəaliyyət göstərməsi barədə Maliyyə Bazarlarına Nəzarət Palatası ilə razılaşma əldə olunmuşdur. Ticarət festivalı başlanan gündən malların satışının rəsmiləşdirilməsi, alınmış mallara görə ödənilmiş ƏDV-nin qaytarılması məqsədilə satıcıların, ƏDV köşklərinin, habelə müvəkkil bankların fəaliyyəti üzrə qarşıya çıxan hər hansı uyğunsuzluğun aradan qaldırılması istiqamətində Vergilər Nazirliyinin aidiyyəti strukturları ilə əlaqələndirilmiş şəkildə müvafiq tədbirlər görülmüşdür.



Ticarət festivalı dövründə ümumi məbləği 33.736.110,2 manat olan 45.035 elektron vergi hesab-fakturası (e-VHF) tərtib olunmuşdur. Yerli vətəndaşlara ümumi məbləği 32.045.379,6 manat olan 42.497 e-VHF, əcnəbilərə isə ümumi məbləği 1.690.730,6 manat olan 2.538 e-VHF verilmişdir. Tərtib edilmiş e-VHF-dən 42.382-si ƏDV köşklərində təsdiq edilmiş, müvəkkil banklar tərəfindən 41.461 hesab-faktura üzrə 3.230.674,8 manat vəsait alıcılara qaytarılmışdır.
Bununla yanaşı, festival dövründə mal alarkən «Tax Free» sistemini seçmiş əcnəbilərə ümumi məbləği 1.858.097,8 manat olan 1133 elektron vergi hesab-fakturası təqdim olunmuşdur. Ümumiyyətlə, həmin dövr ərzində həm ticarət festivalı, həm də «Tax Free» sistemini seçmiş əcnəbilərə ƏDV-nin qaytarılması məqsədilə ümumi məbləği 3.548.828,4 manat olan 3.671 elektron vergi hesab-fakturası verilmişdir.

Ticarət festivalının yekunlaşması ilə əlaqədar ƏDV köşklərində fəaliyyət göstərən ali məktəb tələbələrinə sertifikatlar təqdim edilmişdir.

**Rəşad SADIQOV**

# «Həftə icmalı» təqdim edir...

Vergilər Nazirliyinin sosial şəbəkələrdəki rəsmi səhifələrində «Həftə icmalı» adlı yeni layihənin həyata keçirilməsinə başlanıb. Maarifləndirici xarakter daşıyan layihənin məqsədi vergi ödəyicilərini və cəmiyyəti vergi sahəsində baş verən ən son dəyişikliklər barədə məlumatlandırmaqdır.

Layihə çərçivəsində həftə ərzində vergi sahəsində baş verən ən vacib və aktual hadisələrin video formatda qısa xülasəsi verilir. Artıq sosial şəbəkələrdə yerləşdirilən «Həftə icmalı»nın birinci və ikinci buraxılışlarında Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı ən mühüm hadisələr işıqlandırılıb.



## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Ödəmə mənbəyində vergi

***Banklar tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlərdən ödəmə mənbəyində vergi tutulurmu?***

Vergi Məcəlləsinin 102.1.22-ci maddəsinə əsasən, yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri 2016-cı il fevralın 1-dən yeddi il müddətinə gəlir vergisindən azaddır.

**Qeyd olunanlara əsasən:**

Yerli bank və xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin əmanətləri üzrə hesablanmış faizlərdən vergi tutulmur.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2018-ci il mayın 1-i vəziyyətinə Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 1,2 faiz artaraq **1538,2 min** nəfər olub, onlardan **887,2 min** nəfəri iqtisadiyyatın dövlət, **651 min** nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.
- Azərbaycanda təbii qazla təmin edilən abonentlərin sayı **2 milyon 132 min 821**-ə çatıb.
- Bu ilin yanvar-aprel aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,5 faiz artaraq **538,8** manat olub.
- Ötən il respublikanın neft emalı zavodlarında sutkalıq **113 min** barel neft emal olunub.
- Azərbaycanın **30** rayonunda **45** aqroparkın yaradılması nəzərdə tutulub.
- Ötən il avtomobil nəqliyyatı ilə daşımalardan əldə olunan gəlir 1 milyard **273 milyon 879 min** manat təşkil edib.
- Azərbaycanın **1,3 trilyon** kubmetrədək təsdiqlənmiş təbii qaz ehtiyatları mövcuddur.
- Rusiyanın «TurStat» analitik agentliyinin müəyyənləşdirdiyi MDB kurortlarının reytinqində Xəzər dənizi sahilində Bakının Bilgəh qəsəbəsindəki çimərliklər **5** ən populyar kurort sırasında yer alıb.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- İyunun 7-də 6 saylı Ərazi Vergilər İdarəsinin (ƏVİ) əməkdaşları Masallı rayonunda fəaliyyət göstərən bələdiyyə sədrləri və üzvləri ilə görüş keçirmişlər. Görüşdə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklər, o cümlədən «Nağdsız hesablaşmalar haqqında» Qanun»un tətbiqi, «Rüblük vergi bəyannamələrinin, hesabat formalarının və onların əlavələrinin tərtib edilməsi qaydaları» və elektron xidmətlər haqqında söhbət aparılmışdır.
- İyunun 8-də 3 saylı ƏVİ-nin əməkdaşları Şabran şəhərində ictimai iaşə, pərakəndə və topdansatış ticarət və istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri ilə görüş keçirmişlər. Görüşdə «Elektron qaimə-fakturanın tətbiqi və vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydaları», Vergi Məcəlləsinə əlavə və dəyişikliklər, «Dövlət rüsumu haqqında», «Nağdsız hesablaşmalar haqqında» qanunlar və s. mövzularda müzakirələr aparılmışdır.
- İyunun 8-də 4 saylı ƏVİ-nin əməkdaşları ilə Şamaxı rayonu ərazisində fəaliyyət göstərən vergi ödəyiciləri ilə keçirilmiş görüşdə Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2017-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması» və «Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması» qaydalarının tətbiqi mövzusunda müzakirələr aparılmışdır.
  Vergi ödəyicilərinə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə hər il mayın 18-dən iyunun 18-dək respublikada «İnsan hüquqları aylığı» keçirildiyi xatırladılaraq, vergi ödəyicilərinin hüquq və vəzifələri barədə izahat verilmişdir.

# E-imzalar qarşılıqlı şəkildə tanınacaq

### Rəqəmsal Ticarət Qovşağının yaradılması həm elektron imzaların tanınmasına, həm də xarici investorlar üzrə vergi və inzibati xərclərin azalmasına imkan verir

Azərbaycan elektron imzaların (e-imza) qarşılıqlı tanınması ilə bağlı Avropa İttifaqı (Aİ) ölkələri ilə işləri davam etdirir. Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə Bakıda keçirilən 4-cü Aİ-Azərbaycan biznes forumunda çıxışı zamanı bildirib ki, Aİ-nin yeni tövsiyələrinə əsasən ölkəmizin yerli qanunvericiliyinin beynəlxalq e-IDAS qanunvericiliyinə uyğunlaşdırılması nəzərdə tutulur. Qeyd edilib ki, e-imzaların qarşılıqlı tanınması Aİ-Azərbaycan iqtisadi əlaqələrinin genişlənməsinə səbəb olacaq, elektron ticarətin və e-biznesin inkişafı üçün yeni imkanlar yaradacaq. Azərbaycan və Avropa şirkətləri arasında e-ticarətin stimullaşmasını təmin etməklə idxal-ixracın həcminin artması mümkün olacaq.




E-imzaların qarşılıqlı tanınması ölkədə biznesin təşviqinə daha geniş imkanlar açacaq, xarici biznes tərəfdaşları arasında sənədlərin elektron formada tərtibi və imzalanmasına, digər dövlətlərlə elektron məlumat mübadiləsinə, transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə, xarici investorlar üzrə vergi və inzibati xərclərin azalmasına şərait yaradacaq.

Elektron texnologiyalar sahəsi üzrə mütəxəssis Nicat Əsədlinin sözlərinə görə, qarşıda duran müasir iqtisadi çağırışlardan biri ixracyönümlü iqtisadiyyata keçidin təmin olunması, Avropa, Asiya və MDB dövlətləri, yaxın region ölkələri ilə əlverişli ticarət sazişlərinə əsaslanan aşağı tarifli mühitdə səmərəli gömrük prosedurlarının tətbiqi nəticəsində Azərbaycanın ticarət qovşağı kimi mövqeyinin gücləndirilməsidir. Bu məqsədlə ölkəmizin şaxələndirilmiş nəqliyyat-logistika imkanlarından və informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməklə ixrac potensialının yüksəldilməsi, transsərhəd ticarətin, o cümlədən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulub. Həmin hədəflərin gerçəkləşməsində isə ən mükəmməl platforma Azərbaycan Rəqəmsal Ticarət Qovşağıdır. Xarici ölkələrlə e-imzanın qarşılıqlı tanınmasını təmin etmək üçün ən yaxşı vasitə olan ticarət qovşağı çərçivəsində xarici tərəfdaş və beynəlxalq təşkilatlarla sazişlər imzalamaqla xarici investorlarla elektron ticarət üçün yaşıl işıq yandırılmış olur. Ölkəmizlə ISESCO arasında anlaşma memorandumunun imzalanması islam ölkərində elektron imzaların qarşılıqlı tanınması baxımından əhəmiyyət daşıyır. Çin hökuməti ilə də bu cür sənəd imzalanma ərəfəsindədir.

Rəqəmsal Ticarət Qovşağının yaradılmasında iştirakçı dövlət orqanlarından biri olan Vergilər Nazirliyi xarici ölkələrlə elektron imza, o cümlədən «ASAN imza» sertifikatlarının qarşılıqlı tanınması istiqamətində tədbirlər həyata keçirib. Elektron imza, o cümlədən «ASAN imza» vasitəsilə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərin formalarının sadələşdirilməsi və xarici ölkə ərazilərində də elektron qaydada təsdiq olunması imkanının yaradılması ilə bağlı hüquqi-texniki məsələlər həll edilməkdədir. Xarici rezidentlərin elektron qaydada müraciət etməsi, bütün gəlir növləri üzrə güzəştlərin əvvəlcədən tətbiq olunması, formanın təsdiqinin gəlir ödəyən şəxsə birbaşa onlayn göndərilməsi imkanı yaradılıb. Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza, o cümlədən «ASAN imza» sertifikatının verilməsi də bu layihənin tərkib hissəsidir. Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi elektron imzası olan şəxslərin Azərbaycanda elektron qeydiyyatına imkan yaradır, gücləndirilmiş imzaların diplomatik nümayəndəliklər tərəfindən ölkədən kənarda verilməsini texniki cəhətdən təmin edir. Beləliklə, qeyri-rezidentlər öz ölkələrində həmin sistem vasitəsilə elektron qeydiyyatdan keçərək Azərbaycanda müəssisə yarada bilərlər.

Türkiyənin nəqliyyat, dənizçilik və rabitə naziri Əhməd Arslan bildirib ki, Azərbaycan türkdilli dövlətlərin elektron hökumət və e-imza sahəsində əməkdaşlığının möhkəmlənməsində aparıcı rol oynayır. Azərbaycanın təşəbbüsü ilə türkdilli ölkələr arasında elektron ticarət dövriyyəsinin artırılması məqsədilə «elektron imza» sertifikatlarının qarşılıqlı tanınması sahəsində birgə razılıq əldə olunub və yaxın vaxtlarda çoxtərəfli sazişin imzalanması gözlənilir. Həmin sazişlər Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı kimi mövqeyinin gücləndirilməsinə, xarici ticarət əməliyyatlarının genişləndirilməsinə və tranzaksiyaların artmasına kömək edəcək.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə isə bildirib ki, 2019-cu ildən etibarən veriləcək yeni nəsil şəxsiyyət vəsiqələrində vətəndaşlar «Elektron imza» sertifikatı ilə də təmin olunacaqlar.

**E.CƏFƏRLİ**

# Aktual mövzu: kriptomanat

**Blokçeyn və kriptovalyutalar kimi müasir texnologiyalar dünyanın iqtisadi reallığında aktuallaşan ciddi mövzulardandır. Aparılan müzakirələr zamanı ortaya çıxan suallardan biri də budur: Azərbaycanda da kriptomanatın yaradılması zərurəti varmı?**

İqtisadçı Samir Əliyevin sözlərinə görə, ilk kriptovalyuta 2008-2009-cu illərdə baş vermiş qlobal maliyyə böhranı zamanı buraxılsa da, hökumətlərin diqqətini son 1-2 ildə cəlb etməyə başlayıb: «Milli valyutalarla sərt rəqabət aparan, istənilən ölkənin maliyyə sistemini dağıtmağa qadir olan bu texnologiya özünə əhəmiyyətli dərəcədə maraq çəkə bilib. Bunun nəticəsidir ki, kriptovalyutaların həm çeşidi artıb, həm də qiyməti. Elə buna görə də hökumətlər bu ödəniş sistemindən narahat olmağa başlayıblar. İnsanların maliyyə müstəqilliyini təmin edən, əlavə xərclərdən azad edən, nəzarət edilməsi mümkün olmayan elektron valyutalara münasibət heç də birmənalı deyil. Bəzi ölkələr onları öz bazarlarına buraxsalar da, əksəriyyəti gözləmə mövqeyindədir. Hətta qadağalar qoyan ölkələr də az deyil. Əsas səbəb də bu sahədə maliyyə axınlarına nəzarətin mümkünsüzlüyü, çirkli pulların yuyulmasının və terrorizmin maliyyələşdirilməsinin qarşısını almağın çətinliyi, ölkənin maliyyə sistemi üçün risk yaranmasıdır».

S.Əliyev qeyd edib ki, Beynəlxalq Valyuta Fondu ilk əvvəllər bunun təhlükəli olmadığını bildirsə də, sonradan ölkələrə özlərinin suveren kriptovalyutasını yaratmağı tövsiyə edib: «Bir sıra ölkələr milli kriptovalyutalarını buraxacaqlarını bildiriblər və hər birinin bu sahədə öz məqsədi var. Hiperinflyasiya ilə üzləşən Venesuela buraxmaq istədiyi milli kriptovalyutanın (El Petro) məzənnəsinin neftin qiymətinə bağlı olacağını elan edib. Məqsəd ölkəyə investisiya cəlb etmək və onu böhrandan çıxartmaqdır. İran ABŞ-dan və beynəlxalq ödəniş sistemlərindən (SWIFT, VISA, Master Card) gələn sanksiyalardan özünü müdafiə məqsədilə islam qanunlarına əsaslanan kriptovalyuta buraxmaq niyyətindədir. İsrail, Böyük Britaniya və Çin də öz milli valyutalarına sıx bağlı olan kriptovalyutanı buraxmağa hazır olduqlarını bəyan ediblər. Onlar hesab edirlər ki, Mərkəzi Bank prosesə ciddi nəzarət etməli və proses sərt qaydada tənzimlənməlidir: «Burada məqsəd nağd pul kütləsini azaltmaq, qanunsuz əməliyyatları nəzarətə götürmək, tranzaksiya edən ödəyicini və onu alan benefisiarı müəyyənləşdirməkdir. Estoniya hökuməti bu il avroya bağlı olan «Estcoin» buraxacağını elan etsə də, sonradan bu fikirdən daşındı. Əlbəttə, bu qərarda Avropa Mərkəzi Bankının mövqeyi də az rol oynamadı».

İqtisadçının fikrincə, milli kriptovalyutalar hökumətin sərt nəzarəti altında olsa da, qlobal kriptovalyutalarla mübarizədə uğur qazana bilmək sual altındadır: «Azərbaycan da prinsip etibarilə özünün kriptomanatını buraxa bilər. Ancaq mövcud iqtisadi situasiyada bu addımın müsbət nəticələr verəcəyini proqnozlaşdırmaq çətindir. Hökumətin bu məsələdə gözləmə mövqeyi tutması və qərar verməyə tələsməməsi başadüşüləndir. Qlobal kriptovalyutalar ölkədən kapital axınını şərtləndirirsə, suveren kriptovalyutalar özünə gəlməmiş maliyyə sektoru üçün çətinliklər yarada bilər. Azərbaycanda nağd ödəniş hələ də dominant mövqeyini qoruyub saxlayır, əhali nağdsız ödənişlərə, bank əməliyyatları aparmağa maraqlı deyil. Ölkədə bank sektoru dayanıqlı olmadığı üçün kriptomanatın nə dərəcədə effektiv işləyəcəyi sual altındadır. Hər bir halda, proses zamanın öhdəsinə buraxılmalı və digər ölkələrin təcrübələri dərindən öyrənilməlidir».

**F. İKRAMQIZI**

# Ümumi Hesabatlılıq Standartının tətbiqi və tələblərə əməl edilməsi

İyun ayının 8-də Vergilər Nazirliyində Beynəlxalq vergitutma və maliyyə institutlarında vergi monitorinqi departamentinin təşkilatçılığı ilə maliyyə institutlarının nümayəndələri ilə «Ümumi Hesabatlılıq Standartının tətbiqi və tələblərə əməl edilməsi» mövzusunda görüş keçirilmişdir. Görüşdə Maliyyə Bazarlarına Nəzarət Palatasının nümayəndələri, hesabat verən maliyyə institutlarının məsul şəxsləri, eləcə də Vergilər Nazirliyinin əməkdaşları, digər strukturların nümayəndələri və Azərbaycan Dövlət İqtisad Universitetinin bir qrup tələbəsi iştirak etmişlər.

Tədbirdə çıxış edən Beynəlxalq vergitutma və maliyyə institutlarında vergi monitorinqi departamentinin Maliyyə institutlarında vergi monitorinqi idarəsinin direktoru Səfərəli Cavadov iştirakçılara İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən hazırlanmış avtomatik məlumat mübadiləsinin prinsiplərini tənzimləyən ümumi hesabatlılıq standartı olan CRS-in hüquqi əsasları və ümumi prinsipləri haqqında məlumat vermişdir. Bildirilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin 18-ci hissəsində ölkənin hüdudlarından kənarda əldə edilmiş gəlirlərin vergiyə cəlb olunmasında şəffaflığı təmin etmək və səmərəli vergi nəzarəti həyata keçirmək üçün digər dövlətlərlə maliyyə məlumatlarının avtomatik mübadiləsi məqsədilə hökumətlərarası müqavilələrin bağlanması nəzərdə tutulmuşdur: «Sərəncamdan irəli gələn tapşırığı yerinə yetirmək məqsədilə «Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşma»ya qoşulmaq barədə qərar qəbul edilmiş, ölkə Prezidentinin 3 may 2017-ci il tarixli sərəncamına əsasən Çoxtərəfli Razılaşmaya qoşulmaq haqqında Bəyanatı Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti vergilər nazirinə həvalə edilmiş və 2017-ci ilin 1 iyun tarixində Bəyanat imzalanmış, Çoxtərəfli Razılaşma Azərbaycan Respublikasının da tərəfdar çıxdığı «Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında Konvensiya»nın 6-cı maddəsinə uyğun qaydada hazırlanmışdır».

Qeyd olunmuşdur ki, Çoxtərəfli Razılaşma 15 iyul 2014-cü il tarixində OECD tərəfindən hazırlanmış və vergitutma məqsədləri üçün müxtəlif dövlətlərin rezidentləri olan fiziki və hüquqi şəxslərin maliyyə institutlarındakı hesabat verilməli hesablarının qalığı barədə məlumatların toplanması və həmin şəxslərin rezidenti olduqları dövlətlərlə avtomatik mübadiləsinin vahid prinsiplərini tənzimləyən Ümumi Hesabatlılıq Standartının tətbiq edilməsini nəzərdə tutur. Bildirilmişdir ki, Çoxtərəfli Razılaşmaya qoşulmaqda əsas məqsəd bu sənədin məlumat mübadiləsinin aparılma müddəti və qaydasına əsasən xarici dövlətlərin rezidentləri olan fiziki və hüquqi şəxslərin hesabat verilməli hesablarının qalığı barədə məlumatların ümumiləşdirilərək həmin dövlətlərə göndərilməsi, eyni zamanda həmin dövlətlərdə Azərbaycan Respublikasının rezidentləri olan fiziki və hüquqi şəxslərin hesabat verilməli hesablarının analoji məlumatlarının mübadilə edilməsi və bu sahədə şəffaflığın artırılmasıdır. Çoxtərəfli Razılaşmaya qoşulma haqqında bəyanata əsasən Azərbaycanda Standartın tətbiqinə 1 iyul 2017-ci il tarixdən başlanmışdır.

**FƏXRİYYƏ**

# «Made in Azerbaijan» brendi xarici bazarlarda tanıdılır

İyunun 12-də Bakı Biznes Mərkəzində Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) fəaliyyəti, «Made in Azerbaijan» brendinin təbliği istiqamətində görülən işlər və qarşıda duran vəzifələrlə bağlı mətbuat konfransı keçirilib.

İqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün həyata keçirilən islahatlar, yerli istehsalın stimullaşdırılması, rəqabətədavamlı məhsulların istehsalı, ixracatçılara yaradılmış əlverişli şərait, ixracın genişləndirilməsi, «Made in Azerbaijan» brendinin xarici ölkələrdə tanıdılması və xarici investisiyaların təşviqi sahəsində görülən işlər barədə məlumat verib.

AZPROMO-nun prezidenti vəzifəsini icra edən Yusif Abdullayev bildirib ki, yerli şirkətlərin biznes əlaqələrinin daha da genişləndirilməsi və ölkə iqtisadiyyatına investisiya qoyuluşunun təbliği məqsədilə Azərbaycanda və xaricdə 2018-ci ilin yanvar ayından 33 tədbir və ikitərəfli görüş təşkil olunub. Bu ilin əvvəlindən dörd ölkənin müxtəlif təşkilatları ilə əməkdaşlığa dair 5 anlaşma memorandumu imzalanıb, 160-dan çox şirkətə ixrac üzrə fərdi qaydada xidmətlər göstərilib, sahibkarlıq subyektlərinə 1,7 mln. manat məbləğində ixrac təşviqi ödənilib.

2018-ci ilin yanvar-may ayları ərzində «Made in Azerbaijan» brendinin xarici ölkələrdə təşviqi məqsədilə İqtisadiyyat Nazirliyinin dəstəyi, AZPROMO-nun təşkilatçılığı ilə Rusiyanın Həştərxan vilayətinə ixrac missiyası təşkil olunub. İxrac missiyasında tikinti materialları, tekstil, qənnadı məhsulları, meyvə-tərəvəz, təbii mineral sular və limonadlar, meyvə şirələri və s. sahələr üzrə 30-dan çox yerli şirkətin nümayəndəsi iştirak edib. Bundan əlavə, ilin əvvəlindən Azərbaycan şirkətləri vahid ölkə stendi ilə 4 sərgidə Moskvada «Prodexpo 2018», Dubayda «Gulfood 2018», Çin Xalq Respublikasının Şanxay şəhərində «Sial China 2018» və Berlində «Fruit Logistica 2018» beynəlxalq ərzaq sərgilərində «Made in Azerbaijan» vahid ölkə stendi ilə iştirak ediblər.

2018-ci ilin əvvəlindən vahid ölkə stendi mexanizmi çərçivəsində 5,5 milyon manatlıq müqavilə imzalanıb və artıq 4 milyon manata yaxın məhsul ixrac olunub.

Ümumilikdə, bu il nəzərdə tutulan 13 ixrac missiyasının maksimum müddəti 4 gündən 6 günədək, iştirakçıların sayı isə 20-dən 30-a qədər artırılıb.

**ELBRUS**

# Peşəkarlığı müəyyənləşdirən meyarlar hazırlanır

## Azərbaycanda 18 iri dövlət müəssisəsi Mühasibat Uçotunun Beynəlxalq Standartlarının tətbiqinə keçib

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova «Dövlət müəssisələrinin fəaliyyətində şəffaflıq və səmərəliliyin təşviqi» mövzusunda keçirilən konfransda bildirib ki, müəssisələrin korporativ idarəçilik standartlarına uyğunluğuna nəzarət artırılmalı, dövlət müəssisələrinin kredit borcu məsələləri həll edilməlidir. Dövlət başçısının imzaladığı sərəncama əsasən, mühasibatın təkmilləşdirilməsini nəzərdə tutan komissiya yaradılıb. Komissiyanın tərkibinə Maliyyə, İqtisadiyyat və Vergilər nazirliklərinin nümayəndələri daxildir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin direktoru Vüsal Qasımlı bildirib ki, korporativ idarəetmə standartlarının effektiv şəkildə tətbiq edilməsi istiqamətində dövlətin üzərinə bir sıra vacib vəzifələr düşür. Bunlara dövlət müəssisələrində icra göstəricilərinin mütəmadi olaraq monitorinqinin aparılması, onların korporativ idarəçilik standartlarına uyğunluğuna nəzarət etmək imkanı verən hesabatvermə sistemlərinin yaradılması, o cümlədən ixtisaslı peşəkarların cəlb edilməsi, həvəsləndirilməsi və s. aiddir. Korporativ standartların tətbiqinin genişləndirilməsi isə rəqabət mühitinin daha da yaxşılaşdırılması, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, sərmayə cəlbi və dövlət aktivlərinin səmərəli istifadəsi ilə nəticələnəcək.

Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Navid Həsən Naqvi bildirib ki, Azərbaycan hökuməti bu yaxınlarda dövlət müəssisələrinin idarə edilməsi sahəsində iddialı islahat prosesinə başlayıb. Dünya Bankı isə prosesə korporativ idarəçilik sisteminin təhlili, risklərin və fəaliyyət göstəricilərinin qiymətləndirilməsinin təkmilləşdirilməsi sahəsində məsləhətlər vasitəsilə dəstək verib. Bank ümid edir ki, bu cür dəstək mexanizmləri Azərbaycan hökumətinə dövlət müəssisələrinə nəzarət funksiyasının gücləndirilməsi və effektiv idarə edilməsinə öz müsbət təsirini göstərəcək.

Dövlət orqanlarında və biznes qurumlarında şəffaflığın təmin edilməsi məqsədilə «Mühasibat uçotu haqqında» Qanuna dəyişikliklər nəzərdə tutulur. Qanun layihəsinə əsasən, səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər istisna olmaqla digər ictimai əhəmiyyətli qurumların, iri sahibkarlıq subyektlərinin, büdcə təşkilatlarının və illik maliyyə hesabatlarını və ya birləşdirilmiş maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin baş mühasibləri peşəkar olmalıdırlar. Layihəyə əsasən, müvafiq icra hakimiyyəti orqanı peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılmasını və peşəkar mühasib təşkilatının akkreditasiya olunmasını təmin etməlidir.

Qanun layihəsi ilə ölkə ərazisində fəaliyyət göstərən mühasibat uçotu subyektləri tərəfindən beynəlxalq standartlara keçid təmin ediləcək.

# Həyatın yığım sığortası

Bu sığorta insanları ölüm, müəyyən yaşa çatma, ailə başçısının və əmək qabiliyyətinin itirilməsinə görə gəlirlərin azalması və s. kimi hallardan sığortalayaraq, həmin hallar baş verən zaman maliyyə vəsaiti ilə təmin edir. Yığım tərkibli həyat sığortasının özəlliyi bundadır ki, o, təkcə həyatımızı sığortalamır, həmçinin bəzi vergi güzəştlərindən və yığılmış vəsaitlərin investisiya faizlərindən gəlir əldə etməyə şərait yaradır. Həyatın yığım sığortası - bank depozitlərinə yaxşı alternativdir. Mövzunu «AtaSığorta»nın idarə heyətinin sədri Müseyib Əliyev şərh edir.

Azərbaycanda həyat sığortası xidmətləri ölkənin sığorta bazarının yeni bir sahəsi kimi xarakterizə olunur. Həyatın yığım sığortası sığorta olunanın müqavilə müddətinin sonuna qədər yaşaması və ya bu müddət ərzində ölməsi halında müqavilədə nəzərdə tutulmuş məbləğin sığorta şirkəti tərəfindən sığorta olunana ödənilməsini nəzərdə tutur. Müqavilə müvafiq lisenziyaya malik həyat sığortası şirkəti ilə, əsasən, işəgötürənlə əmək müqaviləsi əsasında işləyən şəxslər arasında bağlanılır. Adətən, həyat sığortası üzrə müqavilə iki yolla bağlanılır. Birinci halda istənilən müəssisə, idarə və təşkilatda çalışan şəxs sığorta şirkətinə birbaşa müraciət edərək həyatın yığım sığortası üzrə müqavilə bağlayır. Bu müqavilə ikitərəfli qaydada (sığortaçı ilə sığortalı arasında) bağlanılır. Həmin müqaviləni işçi işəgötürənə təqdim edir və təşkilat hər ay müqavilədə qeyd olunan məbləği işçinin əməkhaqqından çıxır və göstərilmiş məbləğə uyğun gəlir vergisi və məcburi dövlət sosial sığorta haqlarını həmin məbləğə əlavə edərək həmin sığorta şirkətinin hesabına köçürür. İkinci halda isə müqavilə üçtərəfli qaydada (sığorta şirkəti, işəgötürən və sığorta olunan arasında) bağlanılır.

Bu sığorta məhsulunun əhəmiyyəti, ilk növbədə, əmək müqavilələrinin rəsmiləşdirilməsi, əmək müqavilələrinin (kontraktının) bağlanmasının zəruriliyi və tətbiq edilən vergilərin, məcburi dövlət sosial sığorta haqlarının işçilərin xeyzərdə tutulduğundan, bu sığorta növü üzrə müqavilələr adətən 3 illik və əmək münasibətlərində olan şəxslər tərəfindən bağlanılır.

**Vergi Məcəlləsinin 102.1.8-ci maddəsinə uyğun olaraq, sığorta hadisəsi baş verdikdə sığortaolunanın və faydalanan şəxsin həyatına, habelə onun əmlakına və ya əmlak mənafelərinə dəymiş zərərin əvəzini ödəmək üçün pul və ya natura şəklində ödənilmiş vəsait, həmçinin işəgötürən tərəfindən ödənilən bütün növ icbari sığorta və könüllü tibbi sığorta haqları, 3 ildən az olmayan müddətə bağlanan müqavilə ilə həyatın yığım sığortası və pensiya sığortası üzrə işəgötürənin Azərbaycan Respublikasının sığortaçılarına ödədikləri sığorta haqları, həyatın yığım sığortası və pensiya sığortası üzrə müqavilənin qüvvəyə mindiyi andan etibarən 3 illik müddət keçdikdən sonra sığortaolunana və faydalanan şəxsə ödənilən hər hansı məbləğ fiziki şəxslərin gəlir vergisindən azaddır.**

rinə işlədiyi barədə onları maarifləndirməkdir. Bu sığorta növünün tətbiqi ilə əmək müqaviləsinin bağlanmasında və gəlirlərinin rəsmiləşdirilməsində işçinin marağı əhəmiyyətli dərəcədə artır. Vətəndaş anlayır ki, onun gəlirləri rəsmiləşərsə, dövlətin bu sahədə tətbiq etdiyi vergi və digər güzəştlərdən istifadə imkanı olacaq və daha çox gəlir əldə edəcəkdir. Əsas üstünlüklərdən biri də işçilərin müqavilədə göstərilmiş məbləğ üzrə məcburi dövlət sosial sığorta haqlarından və vergidən azad olunmasının onların iş yerində qalmasına stimul verməsidir. Bundan başqa, bu sığorta növü təkcə yığım xarakteri daşımır, həm də ölüm riskindən sığortalayır. Qanunvericiliyə uyğun olaraq həyatın yığım sığortası üzrə şəxs iki sığorta riskindən (ölüm və müəyyən yaşa, müddətə qədər yaşamaq) sığortalanır. Minimum 3 illik bağlanılan həyatın yığım sığortası müqavilələrində qanunvericiliklə vergi və məcburi dövlət sosial sığorta haqları üzrə güzəştlər nə-

Vergi Məcəlləsinin 116.2-ci maddəsinə əsasən, fiziki şəxsin Azərbaycan Respublikası sığortaçıları ilə 3 ildən az olmayan müddətə bağlanmış və sığorta ödənişinin sığorta müqaviləsinin qüvvəyə mindiyi andan etibarən 3 illik müddət keçdikdən sonra verilməsini nəzərdə tutan həyatın yığım sığortası və pensiya sığortası üzrə bağladığı sığorta müqavilələri əsasında ödədiyi sığorta haqları vergitutma məqsədləri üçün işəgötürən tərəfindən həmin fiziki şəxsin muzdlu işlə əlaqədar alınan gəlirindən çıxılır.

İşəgötürən tərəfindən fiziki şəxsin muzdlu işlə əlaqədar alınan gəlirindən çıxılan həyatın yığım sığortası və pensiya sığortası üzrə ödədiyi sığorta haqları yalnız bank vasitəsilə sığortaçının bank hesabına ödənildikdə çıxılır. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, ödənilmiş sığorta haqları sığortaçı tərəfindən ödəmə mənbəyində vergiyə cəlb olunur.

**FƏXRİYYƏ**

## BİR CÜMLƏ - BİR XƏBƏR

İyunun 11-də Bakıda öz işinə başlayan XVII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika (TransCaspian/Translogistika 2018) və VIII Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat (Road & Traffic 2018) sərgiləri bu gün başa çatacaq.

Neftçalada fəaliyyət göstərən «Xəzər» zavodunun istehsal etdiyi avtomobillərin MDB ölkələrinə ixracı ilə bağlı danışıqlar aparılır.

Birləşmiş Ərəb Əmirliklərinin «Dotemirates.com» populyar internet nəşrində Azərbaycanın zəngin turizm potensialı, həmçinin xarici turistlər arasında məşhur olan Quba və Qəbələ rayonlarının təbiətinin gözəlliyi və görməli yerləri barədə məqalə dərc edilib.

İyunun 20-21-də Bakıda «Azərbaycanda sığorta - yeni perspektivlər» mövzusunda beynəlxalq konfrans keçiriləcək.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan** **2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Əsas məqsəd vergi ödəyiciləri ilə münasibətlərin partnyorluq səviyyəsində qurulmasıdır

Prezident İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olunan «Sahibkarlıq fəaliyyətində yoxlamaların dayandırılması haqqında» qanun layihəsinin parlamentdə qəbul edilməsindən sonra 2015-ci il noyabrın 1-dən sahibkarlıq subyektlərində yoxlamalar iki il müddətinə dayandırıldı. Qanunun müvafiq müddəalarına əsasən, iki il ərzində yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparılmalı idi. Həmin yoxlamalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla həyata keçirilir.

Ötən ilin sonunda ölkə başçısı «Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında» Qanunda dəyişikliklər edilməsi barədə qanun imzalayıb. Həmin sənədə əsasən, sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması 2021-ci il yanvarın 1-dək uzadılıb.

Qanunun müddəaları vergi yoxlamalarına şamil olunmasada, kiçik sahibkarlıq subyektlərində səyyar vergi yoxlamalarının və operativ nəzarət tədbirlərinin (əmək müqavilələrinin bağlanmasına və aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması istisna olmaqla) keçirilməsi müvəqqəti olaraq azaldıldı və bu tendensiya davam etdirilir. Məsələn, 2018-ci ilin ilk dörd ayında əvvəlki ilin eyni dövrü ilə müqayisədə səyyar vergi yoxlamalarının sayında 40 faiz azalma olub.

Vergilər Nazirliyinin bu məsələdə mövqeyi belədir ki, vicdanlı vergi ödəyicisi ilə qanunun tələblərinə məhəl qoymayan ödəyici arasında fərq qoyulmalıdır. Vergi orqanının vəzifəsi isə səhvin başvermə anını gözləmək deyil, bütün vasitələrlə onun qarşısını almaqdır. Vergi siyasətinin əsas məqsədi vergi ödəyiciləri ilə münasibətlərin partnyorluq səviyyəsində qurulması, kiçik və orta bizneslə məşğul olan vergi ödəyicilərinin inkişafı, nəzarət etməkdən çox onlarla əməkdaşlıq münasibətlərinin yaradılmasıdır.

**Rəşad SADIQOV**

# AYİB Azərbaycanla əməkdaşlığa ciddi önəm verir

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) hesabatına əsasən, 2018-ci ilin ilk dörd ayı ərzində bankın Azərbaycana yönəltdiyi investisiyaların ümumi həcmi 3,07 milyard avro təşkil edib.

Bu ilin yanvar-aprel ayları ərzində Azərbaycan AYİB-ə 290 milyon avro ödəyib. Ümumilikdə isə ödəmələrin həcmi 14,6 faiz artaraq 2,27 milyard avroya bərabər olub. AYİB-in Azərbaycandakı aktiv layihələrinin sayı 48 olub, ümumilikdə isə bank Azərbaycanda 165 layihə həyata keçirib. 2018-ci il aprel ayının sonuna bankın Azərbaycanda aktiv layihələr üzrə portfeli 1,429 milyard avro təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 21,5 faiz çoxdur. AYİB-in portfelinin 49,5 faizi (707 milyon avro) enerji layihələrinə, 42,5 faizi (607 milyon avro) infrastruktur layihələrinə, 4,9 faizi (70 milyon avro) isə sənaye, kommersiya və aqrobiznes layihələrinə yönəldilib. Daha 3,1 faiz (45 milyon avro) maliyyə təşkilatlarının payına düşüb.

İqtisadçı alim Vüqar Bayramovun şərhinə əsasən, son illər Azərbaycanla beynəlxalq maliyyə qurumları, o cümlədən AYİB arasında əlaqələrin genişləndirilməsinə marağın artması müşahidə olunur: «AYİB Azərbaycanda həyata keçirilən bir çox iri layihələrdə əsas investorlardan biri kimi çıxış edir. Xüsusən də son iki ildə Azərbaycanla bu qurum arasında əməkdaşlığın gücləndirilməsi və bankdan daha çox sərmayənin cəlb edilməsi müşahidə olunur. Bu da AYİB ilə Azərbaycan arasında əməkdaşlığın gücləndirilməsinə və daha yüksək səviyyəyə gəlib çatmasına nail olmağa imkan verir. Bizim üçün çox vacib tərəfdaşlardan olan AYİB-in Azərbaycana yönəldilmiş sərmayələrinin həcminin artması ölkəmizdə həyata keçirilən layihələrə beynəlxalq maliyyə qurumlarının marağının güclənməsi ilə bağlıdır. Bank Azərbaycanın təşəbbüsü ilə reallaşan regional layihələrin maliyyələşdirilməsində yaxından iştirak edir. Bu, bir tərəfdən Azərbaycan iqtisadiyyatına inamın göstəricisidir, digər tərəfdən isə Azərbaycanın təşəbbüsü ilə reallaşan layihələrin rentabelliyi və səmərəliliyinin səviyyəsinin yüksək olmasını göstərən və təsdiq edən məqamlardan biridir».

V.Bayramov qeyd edib ki, Azərbaycanla əməkdaşlıq AYİB üçün də çox vacibdir: «Azərbaycan Cənubi Qafqazın aparıcı iqtisadiyyata malik ölkəsidir. Bundan başqa, biz regional layihələrin reallaşdırılmasında və maliyyələşdirilməsində söz sahibiyik. Nəticə etibarilə bu əməkdaşlıq AYİB-in regiondakı layihələrinin inkişafına pozitiv təsir edir və investisiyanın daha çox bu istiqamətdə yönəldilməsinə imkan verir. Bu baxımdan, güman edirəm ki, əməkdaşlıq hər iki tərəf üçün faydalıdır. Buna görə də tərəflər arasında daha çox əlaqələrin genişləndirilməsi və əməkdaşlıq imkanları müşahidə olunur ki, bu da hər iki tərəfin qarşılıqlı faydalanmasına gətirib çıxaracaq».

**F. CƏBRAYILOVA**

# Agentlik sahibkarlara müraciət etdi

Qida Təhlükəsizliyi Agentliyi Prezident İlham Əliyevin iyunun 11-də imzaladığı «Heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi haqqında» sərəncamından irəli gələn məsələlərin icrası istiqamətində operativ tədbirlər həyata keçirəcək. Dövlət başçısının tapşırığına uyğun olaraq, ölkədə heyvan kəsiminin müasir tələblərə uyğunlaşdırılması, müasir stasionar, modul və mobil tipli kəsim məntəqələrinin təşkil olunması, qanunsuz heyvan kəsimi fəaliyyətinin qarşısının alınması, istehlakçıların hüquqlarının müdafiəsi, qida təhlükəsizliyinin təmin edilməsi sahəsində sistemli və kompleks işlər aparılacaq. Artıq müasir tipli kəsim məntəqələrinin müəyyənləşdirilməsi ilə bağlı yerli icra orqanları hakimiyyətlərinə müvafiq tapşırıqlar verilib. Şəhər və rayonlardakı əhalinin sayına, eləcə də orada yerləşən heyvandarlıq təsərrüfatlarına görə hər bir zonada neçə ət kəsimi məntəqəsinin fəaliyyətə başlayacağı müəyyən olunacaq.

Qida Təhlükəsizliyi Agentliyinin direktoru Qoşqar Təhməzli iş adamlarına müraciət edərək deyib ki, bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən insanlar agentliyə müraciət edə bilərlər: «Bu iş inzibati qaydada deyil, mərhələli şəkildə həyata keçiriləcək. Azərbaycan ərazisində fəaliyyət göstərən ət kəsimi məntəqələrinin sayı və onların sanitar-gigiyenik vəziyyəti monitorinq olunacaq. Ölkə ərazisində nə qədər ət kəsimi məntəqəsinə ehtiyac olduğu müəyyənləşdiriləcək, xırda və iribuynuzlu heyvanların bütün baytarlıq-sanitar - gigiyenik normalara əməl olunmaqla kəsimi və satışı təmin olunduqdan sonra küçələrdə qeyri-qanuni ət kəsimi və satışı yığışdırılacaq».

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin iyun və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin iyun və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa,
Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə
www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## 2018-ci ilin iyun ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2018-ci ilin may ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisi bəyannaməsini;
- Mədən vergisi bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini;
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin iyun ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• **Daşınmaz əmlak** təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi cari ilin iyun ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

• **Muzdlu işlə əlaqədar** 2018-ci ilin may ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi **cari ilin iyun ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən isə 2-ci rüb üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

• **Xüsusi notarius**ların 2018-ci ilin may ayı üzrə hesabladığı gəlir vergisi **cari ilin iyun ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (cari ilin 2-ci rübü üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa,
**Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə**,
ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına
müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Avstraliya yeni vergi islahatı paketinin qəbul edilməsində israrlıdır

Avstraliya hökuməti senat qarşısında iyun ayında vergi islahatları ilə bağlı məsələyə baxılmasını qaldırmışdır. Məqsəd təklifin iyunun 28-də səsə qoyulmasına nail olmaqdır. Maliyyə naziri Matias Kormann jurnalistlərlə söhbətində bildirmişdir ki, hökumət iqtisadi maraqların təmin olunmasına tərəfdardır və islahatlara tamamilə sadiqdir. O, mülahizələrini belə izah etmişdir ki, hökumət iyun ayının sonunda həm irəli sürülmüş ümumi vergi islahatlarına, həm də qarşıdakı seçkilərin tələbindən irəli gələn gəlir vergisi islahatına baxılması niyyətindədir.

Hökumət kiçik biznes üçün aşağı vergi dərəcələrinin tətbiqinə şərait yaradan dövriyyə hüdudunu 2023-2024-cü maliyyə ilinə qədər hər il artırmaq və 2026-cı ilə qədər bütün müəssisələr üçün maksimal vergi dərəcəsini 25 faizə qədər azaltmaq istəyir. Bu təklifin keçməsi üçün hökumət parlamentdə 30 səsə malikdir, lakin təklifin qəbul edilməsinə 39 səs tələb olunur.

Senatda danışıqlara rəhbərlik edən Matias Kormann bildirmişdir ki, «hökumət bütün senatorlarla işini davam etdirəcək, hökumətə daxil olmayan bütün senatorlar, o cümlədən leyboristlər və yaşıllar partiyalarından olan senatorlar üçün qapılar açıqdır. Dünyanın hər yerində işləyən ailələrin maraqlarını qoruyan ölkələr inanırlar ki, vətəndaşların biznesi əlverişsiz rəqabət şəraitində olmamalıdır. Avstraliya da bunu etməlidir. Biz Avstraliya müəssisələrini özümüz bilə-bilə uyğunsuz vəziyyətə sala bilmərik».

# Özbəkistanda turizm müəssisələrinə nəzarət gücləndirilir

Ölkədə iyunun əvvəlində turist yığımlarının məbləğləri təsdiq edilmiş və turizm müəssisələrinə qarşı tələblər sərtləşdirilmişdir. Özbəkistana sərbəst səyahət edən çadır düşərgələrində qalan əcnəbilər üçün turist yığımının tam və vaxtında ödənilməməsi sahəsində məsuliyyət müəyyənləşdirilmişdir, 16 yaşınadək uşaqlar isə yığımdan azad edilmişdir.

İl ərzində 500 nəfərdən artıq qonağa xidmət edən turizm operatorları və agentlikləri ilsenziya ala bilmək üçün bir neçə dildə fəaliyyət göstərən sayta malik olmalı və müxtəlif xidmətləri - elektron ödənişləri, yerlərin əvvəlcədən təyin edilməsini və bank kartlarının qəbulunu bu sayt vasitəsilə həyata keçirməlidir.

Bundan əvvəl Özbəkistanda turist avtomobillərinin milis dəstələri ilə müşayiət olunması öhdəliyinin ləğv edilməsi ilə bağlı xəbər yayılmışdı. Bundan əlavə, artıq turist səfərlərinin yol hərəkəti təhlükəsizliyi üzrə ərazi komissiyaları ilə razılaşdırılmasına da ehtiyac yoxdur.

# Uqandada sosial şəbəkələrdən istifadə üçün vergi tutulur

Parlamentin sədri bəyan etmişdir ki, bu günlərdə qəbul olunmuş qanuna əsasən, Uqanda vətəndaşları sosial şəbəkələrdən istifadə üçün vergi ödəməli olacaqlar. Qanun mayın 30-da qəbul edilmişdir və gələn maliyyə ilində, daha doğrusu, iyul ayında qüvvəyə minəcək. Bundan sonra «Facebook» və «Twitter» şəbəkələrindən, eləcə də «WhatsApp» messencerindən istifadə edən hər kəs gündə 200 şillinq (0,05 dollar) vergi ödəyəcək. Maliyyə Nazirliyinin məlumatına görə, ödəniş mobil operatorlar tərəfindən tutulacaq. Sosial şəbəkələrdən istifadə üçün «sim» kartları vasitəsilə qeydiyyatdan keçmək lazım gələcək.

«Reuters» agentliyinin xəbərində qeyd edilmişdir ki, bu verginin tətbiqi ilə bağlı qərar Uqandanın Prezidenti Yoveri Museveninin təşəbbüsü ilə olmuşdur, onun qənaətinə əsasən, sosial şəbəkələr vasitəsilə şayiələr yayılır. Maliyyə naziri Devid Bahati isə bildirmişdir ki, ölkədə vergi dərəcələrinin qaldırılması və yeni vergilərin tətbiqi artmaqda olan dövlət borclarının qarşılanması məqsədini daşıyır.

# Böyük Britaniya vergi islahatlarının əhatə dairəsini genişləndirir

Hökumət ştatdankənar işlərə aid qaydaların (IR35) təkmilləşdirilməsi ilə bağlı ictimaiyyətlə məsləhətləşməyə başlamışdır. Bu addımın atılmasında əsas məqsəd öz şirkətləri vasitəsilə işləyən podratçıların vergiləri düzgün ödəməsinə təminat yaratmaqdır.

Payızda təsdiqlənmiş büdcədə bildirilmişdi ki, ictimai məsləhətləşmənin gedişində uçotu aparılmayan zəhməthaqqı ilə bağlı mövcud qaydalara riayətetmə səviyyəsinin yüksəldilməsi nəzərə alınacaq. Bu qaydalara əsasən, informasiya texnologiyaları və idarəetmə üzrə məsləhətçilər kimi öz şirkətlərində işləyən podratçıları faktiki olaraq üçüncü tərəf işə cəlb edir və onlar əməkdaş qismində vergi ödəyirlər.

Əldə olan məlumatlara əsasən, özünüməşğul vergi ödəyiciləri vergi ödənilməsi qaydalarının düzgün istifadə olunmaması ucbatından, 2023-cü ilə qədər 21,2 milyard funt sterlinqə qədər vəsait itirə bilərlər. Komissiya qaydaları təkmilləşdirmək imkanlarına baxacaq.

Xəzinədarlığın maliyyə katibi Mel Strayd demişdir: «İnkişaf edən iqtisadiyyatımıza öz töhfələrini verən podratçıların bütün sektorlarda böyük iş gördüklərini etiraf etmək çox mühümdür. Bizim ədalətli vergi sistemimiz var, bu sistem vergi ödəyiciləri üçün vergilərin ödənilməsində bərabər səmərəliliyi və sadəliyi təmin edir, eləcə də bizim üçün həyati əhəmiyyət daşıyan ictimai xidmətləri dəstəkləyir. Buna görə də biz ictimiyyətlə məsləhətləşmələr aparır və geniş spektrli fikirlərin irəli sürülməsini alqışlayırıq. Bu, vergi qanunvericiliyinin pozulmasına qarşı mübarizənin necə aparıldığını təsdiqləyir».



# Polad və alüminiuma tətbiq etdiyi rüsum ABŞ-ı təcrid edir

ABŞ Prezidenti Donald Tramp tərəfindən atılmış bu addımı ekspertlər ABŞ-ın «Böyük yeddilik» (ABŞ, Almaniya, Kanada, Yaponiya, Böyük Britaniya, Fransa və İtaliya) ölkələrindəki tərəfdaşları arasında faktiki olaraq təcrid olunması kimi qiymətləndirirlər.

Mayın 31-dən iyunun 2-dək Kanadanın Uistler şəhərində keçirilmiş görüşdə G7 ölkələrindən altısının maliyyə nazirləri və mərkəzi bankların rəhbərləri rüsumların tətbiqi ilə bağlı rəsmi Vaşinqtonu təmsil edən həmkarlarına narahatlıq və təəssüf hissi keçirdiklərini bildirmişlər. Danışıqların nəticələri barədə Kanadanın maliyyə naziri Uilyam Fransis Morno açıqlama vermişdir.

ABŞ-ın son hərəkətlərinin tərəfdaş ölkələrdə fikir müxtəlifliyi yaratdığı özünü bunda da göstərir ki, görüşün iştirakçıları tədbirin sonunda birgə yekun bəyannamə nəşr etdirməmişdir. Adətən, G7 formatında təşkil edilən tədbirlərin yekunu ilə əlaqədar belə bir sənəd yayılır. AFR agentliyinin məlumatına görə, «böyük yeddilik» üzrə ABŞ-ın tərəfdaşları Vaşinqton təmsilçilərinin götürdükləri istiqaməti dəyişməyə hazır olmadıqlarını qeyd etmişlər.

«ABŞ tərəfindən tətbiq edilən rüsumlar bütün dünyada mövcud olan qaydalara uyğun gəlmir», - Almaniyanın maliyyə naziri və vitse-kansleri Olaf Şolts bildirmişdir. - ABŞ-ın mövcud qaydalara məhəl qoymaması təəccüb və çaşqınlıq yaradır. Şoltsun sözlərinə görə, bu cür ciddi fikir ayrılıqlarının olması G7 təcrübəsi üçün qeyri-normal hadisədir.

Fransanın maliyyə naziri Bryuno Le Mer qeyd etmişdir ki, ABŞ «ticarət müharibəsi»nin qarşısının alınması üçün qarşıdakı bir neçə gün ərzində təsirli addımlar atmalıdır. ABŞ-ın maliyyə naziri Stiven Mnuçin isə öz açıqlamasında bəyan etmişdir ki, görüş G6+1 formatında deyil, məhz G7 formatında keçirilmişdir və ABŞ-ın məqsədi ədalətli və tarazlaşdırılmış ticarət etməkdir. Nazirin sözlərinə görə, Vaşinqton öz tərəfdaşları ilə rüsumlar haqqında istisnalara bağlı müzakirələri davam etdirmək niyyətindədir. Stiven Mnuçin demişdir ki, G7 üzrə tərəfdaş ölkələrin təmsilçilərinin tənqidi qeydlərini Prezident Donald Trampın nəzərinə çatdırmışdır və onun bu məsələ ilə bağlı mövqeyi hələ də son dərəcə sərtdir.

Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp bu ilin mart ayında polad üçün 25 faizlik, alüminium üçünsə 10 faizlik idxal vergisi tətbiq edəcəyini bildirmişdi. ABŞ əvvəlcə Çin, Rusiya, Türkiyə kimi bir sıra ölkələrə bu rüsumu tətbiq etdi. İyun ayının 1-dən isə həmin siyahıya Aİ ölkələri, eləcə də Kanada və Meksika da əlavə edildi. Bu ölkələrin hamısı ABŞ-a rəsmi şəkildə etirazlarını bildirmiş, Ümumdünya Ticarət Təşkilatına müvafiq şikayətlə müraciət etmiş və müvafiq cavab tədbirləri görəcəklərini bildirmişdilər.

# Avropada müəssisələrin vergidən yayınmaq imkanları daraldılır

Avropa İttifaqı Şurası vergilər sahəsində çalışan məsləhətçilərin, hüquqşünasların və mühasiblərin üzərinə müştərilərin istifadə etdikləri aqressiv vergi sxemləri ilə bağlı yerli vergi orqanlarına məlumat vermək öhdəliyi qoymuşdur. Yerli orqanlar isə onlardan aldıqları informasiyaları hər rüb Aİ-yə üzv olan başqa ölkələrdəki həmkarları ilə bölüşəcəklər. «Yeni qaydalar vergi ödəməkdən yayınmaya qarşı mübarizə strategiyamızın əsas hissəsidir», - Aİ Şurasının açıqlamasında bildirilmişdir.

Vergi məsləhətçiləri çirkli pulların yuyulmasına qarşı qanunvericilik bazasının zəif olduğu vergi tutulmayan və ya vergi dərəcələri aşağı olan yurisdiksiya və dövlətlərə ödənişləri əhatə edən aqressiv sxemlər haqqında məlumatları vergi orqanlarına ötürəcəklər. Vergi orqanlarını daha çox maraqlandıran məsələlərdən biri də vergi güzəştləri naminə həyata keçirilən sövdələşmələrdir. Bu sövdələşmələr zamanı eyni aktivlər üçün müxtəlif ölkələrdə güzəştlər əldə edilməklə transfert qiymətləndirmə qaydaları ciddi şəkildə pozulur.

Yeni direktivə əsasən, yalnız vəkillik sirrinə aid məlumatların açıqlanmasına icazə verilməyəcək. Aİ ekspertlərinin açıqlamasında o da göstərilmişdir ki, aqressiv vergi sxemləri haqqında məlumatın verilməsi heç də hər hansı əməliyyatın qanunsuz olması demək deyildir, lakin bu, vergi orqanlarının əməkdaşları üçün qanunsuzluqları aşkara çıxarmağa kömək edə bilər.

Yeniliklə bağlı Aİ-yə üzv ölkələr öz milli qanunvericilik aktlarında 31 dekabr 2019-cu ilə qədər müvafiq dəyişiklik aparmalıdırlar. Vergi ödəməkdən yayınmaya qarşı mübarizə məqsədi daşıyan məlumat mübadiləsi ilə bağlı yeni qaydalar isə 2020-ci ilin iyul ayının 1-dən qüvvəyə minəcək.




## krossvord

**Yuxarıdan aşağı:** 1.Azot və hidrogenin birləşməsindən əmələ gələn kəskin qoxulu rəngsiz qaz; 2.ABŞ-da ştat; 3.Rusiya Federasiyasında Zabaykalsk diyarında çay; 4.Fransız rəssamı, qrafiki və heykəltəraşı. İmpressionizm cərəyanının parlaq nümayəndələrindən biri; 5.Qədim yunan əsatirində allahların məskəni, yığıncaq yeri; 6.Kimyəvi üsulla əldə edilən tünd-sürməyi boya maddəsi; 9.İrsən ötürülən və ölkəni, şəhəri, nəsli, fərdi xarakterizə edən elementlərlə bəzədilmiş emblem; 13.2001-ci ildə 3D formatında çəkilmiş, «Oskar» mükafatı qazanmış bir neçə hissədən ibarət ABŞ animasiya filmi; 15.Daşınar əmlakı və ya başqa bir şeyi girov kimi qəbul edib, borc pul verən kredit müəssisəsi; 16.Əşya, hadisə və anlayışlara münasibət, nöqteyi-nəzər; 17.Qədim yunan mifologiyasında tanrı; 18.Ofisiant; 20.«Kitabi-Dədə Qorqud»da xan; 21.SSRİ xalq artisti, bəstəkar və dirijor. «Şahsənəm» operasının müəllifi. **Soldan sağa:** 1.Mavi-yaşıl rəngdə qiymətli daş; 5.Gürcüstanda şəhər; 7.Dünyanın ən böyük stadionu; 8.Yarımkeçirici cihaz; 10.ABŞ-da ştat; 11.Qədim Afinada hakimiyyət orqanı. Adını yığıncaqların keçirildiyi Afina Akropolu yaxınlığında yerləşən Ares təpəsindən alır; 12.Görkəmli hind mütəfəkkiri və vaizi. Kadam tibet buddizm məktəbinin banisi; 14.Qızdırma, baş ağrısı, qusma və ishal ilə müşayiət olunan infeksion xəstəlik; 19.Dairənin qövsü ilə bu qövsə söykənən vətərin əhatə etdiyi hissə; 21.Radioaktiv maddələrin buraxdığı üç növ şüadan biri; 22.Azərbaycan bəstəkarının adı; 23.Kanadada şəhər. Yeni Şotlandiya əyalətinin inzibati mərkəzi; 24.Kütlə vahidi; 25.Radioqəbuledicilərdə istifadə olunan yüksəktezlikli elektrik rəqsləri generatoru.



«İki bacı (Terrasda)».
*Fransız rəssamın ən məşhur əsərlərindən biri.*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Qranat; 2.Diametr; 3.Adept; 4.Çikaqo; 5.Bruni; 6.Triada; 9.Urdu; 13.Kasa; 15.Maestro; 16.Smirna; 17.Kazino; 18.Akkord; 20.Lemma; 21.Ofris. **Soldan sağa:** 1.Qudyalçay; 5.BƏT; 7.Arabeska; 8.Muti *(Ornella)*; 10.Agent; 11.Qarfild *(Ceyms)*; 12.Krako; 14.Xurma; 19.Melissa; 21.Oçerk; 22.Romb; 23.Libretto; 24.Aba; 25.Krossvord.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# «Təşəkkürlər, Azərbaycan! Təşəkkürlər, Bakı!»

### Velosiped idmanının BMX növü üzrə dünya çempionatına yekun vuruldu

**«Bakıda BMX üzrə dünya çempionatı yüksək səviyyədə təşkil edilən mükəmməl idman yarışı oldu. Mən bir çox dünya çempionatlarında olmuşam. Deyə bilərəm ki, Bakı yarışı gördüyüm ən gözəl çempionatlardan biri idi». Bu sözləri Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) BMX komissiyasının və İttifaqın idarə heyətinin üzvü Artur Lopes Bakıda keçirilən velosiped idmanının BMX növü üzrə dünya çempionatı başa çatdıqdan sonra kütləvi informasiya vasitələrinə müsahibəsində deyib. UCI rəsmisi bu mötəbər yarışın yüksək səviyyədə keçirilməsinə görə Azərbaycan dövlətinə və təşkilatçılara təşəkkürünü belə ifadə edib: «Biz bu çempionatın böyük uğurla keçdiyinin şahidi olduq. Təşəkkürlər, Azərbaycan! Təşəkkürlər, Bakı!».**






Elit kateqoriyada yarışan qadınlar arasında Hollandiya idmançıları ilk üç pillədə yer alıblar. Laura Smulders 35.690 saniyə göstərici ilə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Merel Smulders gümüş, Cudi Baau bürünc medala sahib olub. Kişilərin mübarizəsində isə fransalı velosipedçilər fəxri kürsünün ilk 2 pilləsinə qalxıblar. Fotofinişə əsasən, 31.426 saniyə nəticə ilə Silven Andre birinci olub, onun komanda yoldaşı Joris Dode ikinci pillədə qərarlaşıb. İlk üçlüyü Braziliya idmançısı Anderson Ezekel de Souza Filho tamamlayıb.

Qaliblərə medalları Beynəlxalq Velosipedçilər İttifaqının vitse-prezidenti Renato Di Rokko, qurumun BMX komissiyasının sədri və İdarə Heyətinin üzvü Artur Lopes, Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov və Azərbaycan Velosiped İdmanı Federasiyasının birinci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyi Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov təqdim ediblər.

İlk üç pillədə qərarlaşan idmançılara medal və çempionatın rəsmi talismanı olan Qafqaz bəbiri, qalib idmançılara isə çempionluq köynəyi verilib. Mükafatlandırma mərasimi möhtəşəm atəşfəşanlıqla başa çatıb.

Qeyd edək ki, velosiped idmanının BMX növü üzrə növbəti dünya çempionatı 2019-cu ildə Belçikanın Heusden-Zolder şəhərində keçiriləcək. Bu baxımdan, Bakıda keçirilən dünya çempionatı çərçivəsində yarışın keçici bayrağı növbəti mundiala ev sahibliyi edəcək Belçika nümayəndəsinə təqdim olunub. Azərbaycan Velosiped İdmanı Federasiyasının birinci vitse-prezidenti Sahib Ələkbərov keçici bayrağı Belçikada təşkil olunacaq dünya çempionatının təşkilatçısı Jef Simonsa təqdim edib.

## Gənc idmançılarımız beynəlxalq turnirlərdə...

■ Türkiyənin İstanbul şəhərində 23 yaşadək güləşçilər arasında Avropa çempionatına yekun vurulub. Azərbaycan güləşçiləri çempionatda, ikisi qızıl olmaqla, ümumilikdə yeddi medal qazanıblar.

Sərbəst güləşçimiz Şamil Zubairov yarımfinalda Ermənistan təmsilçisini məğlub edərək finalda Gürcüstan güləşçisi İrakli Mtsituri ilə qarşılaşıb. O, qızıl medal uğrunda görüşdə gürcüstanlı rəqibinə tam üstünlüklə (8:1) qalib gəlib. İkinci qızıl medalın sahibi yunan-Roma güləşçimiz İslam Abbasov olub. Sərbəst güləşçilərimizdən Əfqan Xaşalov və Ənvərbəy Dalqatov gümüş, Murad Süleymanov bürünc medala sahib olub. Yunan-Roma güləşçilərindən isə Murad Məmmədov və Eltun Vəzirzadə bürünc medala yiyələnib.

■ Gürcüstanın Kutaisi şəhərində gənc boksçular arasında keçirilən beynəlxalq turnir başa çatıb. Yarışda ev sahibləri ilə yanaşı, Azərbaycan, Rusiya və Ermənistan yığmaları mübarizə aparıblar. Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, komandamız turniri 5 qızıl və 4 gümüş medalla başa vurub. Bütün rəqiblərinə qalib gələn Vüqar Hüseynov (49 kq), Nəbi İsgəndərov (60 kq), Səbuhi Abışov (64 kq), İsmayıl Yaqubov (91 kq) və Vüqar Səmədov (+91 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Yalnız finalda məğlub olan Tacəddin Məmmədov (49 kq), Tacəddin Maməliyev (56 kq), Cahid Qurbanov (75 kq) və Rəhim Əhmədli (+91 kq) isə ikinci yeri tutublar.

Bu göstərici ilə Azərbaycanın milli komandası komanda hesabında birinci yerə sahib olub.

## Ramil Quliyev qələbə seriyasını davam etdirir




Türkiyə millisinin üzvü, azərbaycanlı atlet Ramil Quliyev növbəti uğuruna imza atıb. Finlandiyada keçirilən Paavo Nurmi Oyunlarında 200 metr məsafəyə qaçışda yarışın qalibi adını qazanan 28 yaşlı idmançı 20.23 saniyə ilə bütün rəqiblərini geridə qoyub və turnirin rekordunu yeniləyib.

İyunun 7-də isə R.Quliyev Norveçin paytaxtı Oslo şəhərində keçirilən «Brilyant Liqa»nın 5-ci mərhələsində 200 metr məsafəyə qaçışda finiş xəttinə birinci çatıb. Bu məsafəni 19,90 saniyəyə qət edərək hesabındakı xalı 16-ya çatdıran idmançı ümumi sıralamada 3-cü yerə şərik olub.

## mozaika

**elm**

### Beyin elektrostimulyasiyası reallığa çevrilir

Tanınmış yazıçı və jurnalist Devid Adam Britaniyanın Brekon-Bikons milli parkında keçirilən ədəbiyyat və incəsənət festivalında bildirib ki, böyük texnoloji inqilab neyrobiologiyadan başlayacaq. Əsas vasitə isə beynin elektro-stimulyasiyası və həblərlə intellekt əmsalının (IQ) artırılması olacaq.

BBC xəbər verir ki, britaniyalı yazıçı beynin süni stimulyasiyası vasitəsilə dünyada ən yüksək intellekt əmsalına malik insanları birləşdirən «Mensa» təşkilatına üzv olmağı qarşısına məqsəd qoyub. O deyib ki, bu yaxınlaradək beynin fəaliyyətini gücləndirən həblərə ancaq fantastik romanlar və filmlərdə rast gəlinirdisə, indi «brain-hacking» (beyin fəaliyyətinin süni stimulyasiyası) daha çox realdır.



Devid Adamın «Daxildəki dahi» kitabında neyrobiologiyanın yeni kəşfləri və alimlər qarşısında açılan perspektivlərdən bəhs olunur. Müəllif yazır ki, neyrobioloqlar psixi xəstəlikləri beynin ayrı-ayrı hissələrinin fəaliyyətini dəyişmək yolu ilə müalicə etmək imkanlarını öyrənirlər. Onun sözlərinə görə, bu, artıq zaman məsələsidir. Kitabda qeyd edilir ki, tələbələr imtahanqabağı istifadə etmək üçün «qara bazar»da modafinil kimi həblər əldə edirlər. Britaniyada orta hesabla hər beş tələbədən biri əqli fəaliyyəti artıran bu həblərdən istifadə edir. D.Adam yazır: «İnsanlar artıq beyin fəaliyyətinin stimulyasiyası, yaddaşın gücləndirilməsi, diqqətin və riyazi bacarıqların artırılması məqsədilə eksperimentlər aparırlar. Bunu həyata keçirmək üçün satışda çoxlu preparatlar var».

«Brain-hacking»in təsirini öz üzərində sınaqdan keçirən yazıçı «Mensa»ya üzv olmaq üçün tələb olunan 130 intellekt əmsalını toplamağa çalışıb. Əslində, bu preparat yuxu pozuntuları ilə bağlı rahatsızlıqlarda həkim resepti ilə satılır və hazırda Britaniyada satışı qadağan edilib. Modafinil həbi vasitəsilə məqsədinə nail olan Adam əlavə edib ki, preparatın bir çox fəsadları meydana çıxıb. Məsələn, onun barmaqları dartılıb, əsəbləri gərilib və avtomobil sükanı arxasında otura bilməyib. O, həbləri qəbul etdikdən sonra beyin fəaliyyətini təsvir edərək yazıb: «Mən bir neçə saat işlədim, amma yorğunluq hiss etmədim. Mətni yazdığım zaman sözlər çox asan ağlıma gəlir, sürətlə cümləyə düzülür və bir saatlıq işi 20 dəqiqəyə bitirdim».

Digər metodun - beynin elektrostimulyasiyasının qavrama qabiliyyətini artırdığı və yaddaşı gücləndirdiyi artıq sübut olunub. Elektrostimulyasiya zamanı iki elektrodla təchiz olunmuş cihaz baş nahiyəsinə bərkidilir. Devid Adamın bu eksperimenti beyin yarımkürəsində dözümlülüyü tənzimləyən, habelə yaddaşı və dil mənimsəmə qabiliyyətini artıran nöqtələrə yönəldilib. Lakin o, gözləmədiyi fəsadlarla üzləşib: gözlərinin qarşısında parlaq işıq və beynində gurultular yaranıb. Yazıçı məsləhət görüb ki, bu eksperimentləri həvəskar səviyyədə həyata keçirmək ağır fəsadlarla nəticələnə bilər.

Devid Adam keçirdiyi eksperimentlərdən sonra bu qənaətə gəlib ki, neyrobiologiya sahəsində tədqiqatlar davam etdirilməlidir və yaxın gələcəkdə bunun nəticələri məlum olacaq. Onun sözlərinə görə, əsas vəzifə insanların sağlamlığına təminat verməkdir.

**araşdırma**

### Musiqi təbiətə də təsir edirmiş

Gözəl musiqini ruhun qidası hesab edirlər, lakin onun sehrinə təkcə insanlar deyil, təbiət düşür. Klassik musiqinin delfin və köpək balıqlarına müsbət təsir etdiyi də məlumdur.

Alimlər musiqinin təbiətə təsirini öyrənmək üçün bitkilər üzərində müşahidələr aparıblar. Məlum olub ki, klassik musiqi sədaları altında noxud iki gün tez yetişir, buğda isə daha tez boy atır. Aqressiv musiqilərin səslənməsi isə bitkilərin tez solmasına səbəb olur.

Musiqi dinləyərkən insanlar melodiyaya, çiçəklər isə ritmə münasibət bildirir.

Sakit və klassik musiqilər həttta suyun üzündə də gözəl fiqurlar yaranmasına səbəb olur.

Suyun yanında mənfi yüklü musiqinin səslənməsi zamanı molekulların daha xaotik hərəkəti müşahidə edilir.



**mədəniyyət**

### Aşıq Şəmşirin yubileyi UNESCO-da qeyd edilib

Parisdə, UNESCO-nun mənzil-qərargahında «Qeyri-maddi mədəni irsin mühafizəsi haqqında Konvensiya»nın iştirakçı dövlətlərinin Baş Assambleyasının 7-ci sessiyası keçirilib. Sessiya çərçivəsində UNESCO-da akkreditasiyadan keçmiş qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə UNESCO QHT Forumunda Aşıq Şəmşirin anadan olmasının 125 illiyi qeyd edilib. «Aşıq Şəmşir» Mədəniyyət Ocağı İctimai Birliyinin nümayəndəsi Fazil Qasımov forumda görkəmli aşığın ədəbi irsi haqqında ətraflı məlumat verib. Tədbir çərçivəsində UNESCO-nun qeyri-maddi mədəni irs şöbəsinin müdiri Tim Kurtis ilə görüşən F.Qasımov Aşıq Şəmşirin anadan olmasının 125 illiyi münasibətilə düzəldilmiş sazı və sənətkarın ifa etdiyi 75 saz havasından ibarət diski UNESCO-nun sözügedən şöbəsinə hədiyyə edib.



Qeyd edək ki, sessiya ərzində Baş Assambleyanın keçirildiyi binada Azərbaycan mədəniyyətini əks etdirən stend qurulub. Ziyarətçilərə Azərbaycanın qeyri-maddi mədəni irsi və aşıq sənəti barədə məlumat verilib.

**eksperiment**

### Yuxu və genetik dəyişiklik

Pensilvaniya Universiteti nəzdindəki Perelman Tibb Məktəbində aparılan yeni tədqiqatların nəticələri sübut edib ki, yuxusuzluq və psixoloji stress səbəbindən mikroRNT (ribonuklein turşusu) dəyişilir. Kodlaşdırılmayan bu kiçik RNT molekulları genin ekspressiyasında mühüm rol oynayır. Alimlərin apardıqları təcrübədə 27-53 yaş arası 32 sağlam insan iştirak edib.

İlk iki gün eksperiment iştirakçıları 8 saat yatıblar. Sonra onlar 39 saat ərzində qətiyyən yatmayıblar. Bundan sonra iştirakçılar daha 2 gecə 8-10 saat yatıblar. Alimlər 6 dəfə qan nümunələri götürərək, iştirakçıların plazmasında mikroRNT-ni öyrəniblər. Könüllülər, həmçinin, bir neçə dəfə koqnitiv testlərdən keçiblər.

Tədqiqatçılar aşkar ediblər ki, könüllülərdə yatmamaq səbəbindən 10 mikroRNT, yuxu azlığı və psixoloji stress səbəbindən isə 18 mikroRNT dəyişilib. Diqqətlə bağlı aparılan testin nəticələrində 14, əqli məhsuldarlığın 7, yaddaşın isə 10 mikroRNT dəyişməsi qeydə alınıb.

**texnologiya**

### Bükülən akkumulyator

Çin alimləri elastik «ağıllı» elektronika üçün nəzərdə tutulmuş bükülən litium-kükürd akkumulyatoru üzərində işləyirlər. Maye elektrolitlərin bərk elektrodlara yapışdırılması yolu ilə hazırlanan ənənəvi batareyalardan fərqli olaraq yeni batareyalarda elektrolitlər 3D-şəbəkələri formalaşdıran ultranazik metal lövhələrə yerləşdirilir.

Çin Elmlər Akademiyası yanında Dalyan Kimyəvi Fizika İnstitutunun alimi Çjan Xunçjan bildirib ki, yeni akkumulyatorlar daha sabit və elastikdir, bükülmə və əyilmə zamanı enerji yükünü yaxşı saxlayır. Bu batareyalar yüngül və yüksək enerji sıxlığına, istehsal baxımından qənaətcil və kütləvi istehsal perspektivlərinə malikdir.



**Müdriklər deyib ki...**

*«Ruhdan düşməyi özünüzə rəva görməyin, axırda mütləq nailiyyət qazanacaqsınız».*

*Avraam Linkoln (1809-1865)*

